# QURANDA ÜMİDVAR OLMAQ

...Allahın mərhəmətindən ümidinizi kəsməyin.
Çünki Allahın mərhəmətindən
ancaq kafirlər ümidlərini kəsər.
(Yusif surəsi, 87)

Harun Yəhya (Adnan Oktar)

# İçindəkilər

Yaradılış həqiqəti

Giriş

Möminlərin ümidvar halları

Allahın Quranda iman gətirənlərə verdiyi vədlər

İnkarçıların ümidsiz halları

Ümidsizliyi yaradan şeytani səs: "vəsvəsə"

Peyğəmbərlərdəki ümidvar əxlaqdan gözəl nümunələr

Nəticə

Təkamül yanılması

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib

edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş

Eyni mühitdə olan iki fərqli insanı, məsələn, iki qapı qonşusunu düşünək. Hər ikisinin də başına eyni pis hadisə gəlmiş olsun. Hər ikisinin də evinə oğru girmiş və evindəki qiymətli əşyaları oğurlamış olsun. Ev sahiblərindən biri Allaha iman gətirmiş bir insan, digəri isə dünya ehtiraslarına qapılmış və axirəti unutmuş bir insan olsun...

İman gətirməyən insan həyatı boyu işləmiş və qazandığı pulla özünə bəzi qiymətli əşyalar satın almışdır. Əşyalarına hər şeydən çox dəyər verər, çünki bütün həyatını, şövqünü və gözləntilərini bunlar üzərinə qurmuşdur. İndi isə bir anda bütün bunlar itirmişdir. Həyatının boşa keçdiyini, əməklərinin yox olduğunu düşünər. Həmişə şikayətçi və pessimist ruh halına bürünər və hər kəsə dərd yanar. Hətta bəziləri günlərlə ağlayar, xəstə olar. Bəziləri də həmişə əsəbi hərəkətlər sərgiləyər, ətrafındakıları incidər. Bəzən də anidən içinə qapanıb, çarəsizliyinə və kədərinə ətrafındakıları da ortaq etməyə çalışar. Öz dili ilə desək itirdiyi bir neçə əşya ucbatından "bütün həyatı alt-üst olmuşdur".

Digər mənzildəki iman gətirən insan isə bütün bu saydıqlarımızın heç birini yaşamaz. Yan evdən gələn qışqırtı və ağlama səslərinin əksinə iman gətirən insanın evində olduqca sakit, hüzurlu vəziyyət hakim olar. Azacıq da olsa kədərlənməz və pessimizmə qapılmaz, həmişəki təvəkküllü, sabit və şən üslubunu qorumağa davam edər.

Çünki malı özünə verənin Allah olduğunu bildiyi kimi, alanın da Allah olduğunu bilir. Hadisədə mütləq özü üçün xeyir olduğunu düşünərək rahat olar. Dünyəvi ehtiraslara qapılaraq əsla gələcək qayğısına qalmaz. Allahın özünə daha gözəlini, daha xeyirlisini həm dünyada, həm də axirətdə verməsini ümid edər.

Bu və buna bənzər hadisələr müsəlmanı heç vaxt ümidsiz etməz. Əksinə, iman gətirənlərin belə hadisələrdə Allaha qarşı təslimiyyətləri daha da artar, hər vəziyyətdə Allaha şükür etməyin bəxş etdiyi rahatlıq və xoşbəxtliyini yaşayarlar. Allahın özlərini sınadığını bilərək Allahdan daha xeyirlisini ümid edərlər.

İman gətirən insan, hər şeyini itirsə belə, yenə də ən kiçik ümidsizliyə qapılmadan, səbirlə, şövqlə hər şeyə ən əvvəldən başlaya bilər. Sahib olduğu bu şövq, imanından, Allaha qarşı duyduğu sevgi və etibardan, Quran əxlaqını mənimsəmiş olmasından və dünya həyatının müvəqqəti olduğunu qəti şəkildə qavramış olmasından qaynaqlanar. Gələcək üçün həmişə ümidvar olan davranışı, hadisələrin həmişə gözəl tərəfini görən münasibəti həyatı boyu qarşılaşdığı bütün hadisələrdə özünü göstərər.

İman gətirən insanlar nə qədər böyük çətinliklərlə qarşılaşsalar da, həmişə çox gözəl yetkinlik, etidal, mətanət və fərasət göstərərlər. Təmkinlilik, zadəganlıq və möhtərəmliklərindən qətiyyən güzəştə getməzlər. İnkarçı insanlarda görünən davranış və

əxlaq pozuqluqlarından heç birini göstərməz, bu əxlaqları ilə bütün insanlar üçün çox gözəl nümunə olarlar.

Belə vəziyyətlərdə ən çox diqqətçəkən xüsusiyyətləri isə əsla ümidsizliyə qapılmamalarıdır. Çünki ümidsizliyə qapılmaq Allahın bəyənmədiyi davranışdır və Quranda inkarçılara məxsus xüsusiyyət kimi göstərilib. Çünki, Allahın köməyindən, rəhmətindən, bağışlayıcılığından ümid kəsmək çox çirkin davranışdır və Quranda qadağan edilmişdir.

İman gətirən insan imanından qaynaqlanan ümidvar ruh halı ilə rahat və xoşbəxt həyat sürər. Allaha təslim olmayanlar isə daim ümidsizlik, narahatlıq və dərd içindədirlər. Buna görə də qəmləndirici, bədbəxt və sıxıntılı həyat yaşayarlar. İnsanların əksəriyyəti, istədikləri şeyi əldə edə bilmədikdə, sevdikləri bir şeyi itirdikdə və ya başlarına gözləmədikləri pis bir hadisə gəldikdə ümidsizliyə qapılarlar. Bununla yanaşı, axirətdə bağışlanmağı, cəhənnəmdən xilas olmağı, cənnətə getməyi ümid etmək ağıllarına belə gəlməz. Hətta axirət barəsində doğru, Quran məlumatına sahib olmadıqlarından cənnəti ümid etməyin nə demək olduğundan belə xəbərləri yoxdur.

Bütün bunların səbəbi Qurandan xəbərsiz, Quranda göstərilən doğru yoldan uzaq yol tutmalarıdır. Alışdıqları gündəlik həyatın təlaş və qarışıqlığı içində, başlarına gələn hər mənfi hadisə onlar üçün kədər və pessimizm səbəbi olar. İman gətirənlərin Quran əxlaqı sayəsində qazandıqları İlahi elmdən, nəsihət və tövsiyələrdən xəbərsiz olduqları üçün şeytanın bütün vəsvəsələrinə qulaq asar, bir çox narahatlıq, xülya və dərdlərə qapılarlar. Özlərinə Quran göndərildiyi halda ondan üz döndərmələrinin qarşılığını həm bu dünyada, həm də axirətdə maddi və mənəvi olaraq alarlar.

Məhz bu kitab, bu günə qədər qurandan uzaq həyat yaşamış insanların keçmiş həyatlarındakı yanlış münasibət və zehniyyətlərini tərk etmələri, dünya və axirət xoşbəxtliyinə qovuşmaları üçün mühüm fürsətdir. İman gətirən və qurana tabe olanlar üçün isə nəsihət və xatırlatma, quranı daha yaxşı anlamağa təşviq vəsiləsidir.

# Mömin, Allahın Qəffar sifətinə güvənər və ümidvar olar

**Adnan Oktar**: Allah rəhmət sahibidir. Rəhman və Rəhimdir. **"Qullarına qarşı Şəfqətlidir", (Bəqərə surəsi, 207)**. Bu Quran ayəsidir, yəni məna cəhətdən yaxındır. Təbii ki, müsəlmanlar Allahın rəhmətini istəyər, mərhəmətini istəyərlər. Müsəlmanların yeri cənnətdir. Müsəlmanlar cənnətdən dünyaya gəlirlər və dünyadan da cənnətə gedərlər. Sonsuz cənnəti yaşayarkən o həyatın içindən dünyaya gəldi müsəlmanlar. Küfr əhli də cəhənnəmin içindən gələr. Çünki baxın tək bir an. An, saniyə deyil, salisə də deyil, salisənin milyonda biri də deyil. O an içində Allah sonsuz həyatı yaşatdı və bitirdi. Dolayısilə onsuz da müsəlmanlar hazırda eyni zamanda cənnətdədirlər. Onsuz da Allah söyləyir, Əbu Ləhəbin, cəhənnəmdəki halını söyləyir. Adam həyatdaykən söyləyir Allah. Ona görə də, həzrəti Peyğəmbər (s.ə.v)-in, digər şəxslərin cənnətdəki həyatı da bildirilir. Dolayısilə onlar hazırda cənnətdədirlər.

Müsəlman hüsnü-zənn etməlidir inşaAllah. Allahdan ümidvar olmalıdır. Allah Rəhman və Rəhimdir və qoruyandır, Qəffardır. Biz Allahı böyük sevgi ilə, ehtirasla sevərik və Onun təcəllilərini də ehtirasla sevərik. "Sizə əzab vermək Allahın nəyinə gərəkdir?" (Nisa surəsi, 147) deyir Allah, şeytandan Allaha sığınıram. Belə əzab vermə ehtiyacı olan bir varlıq deyil Allah. Allah xoşbəxt olmağımızı, gözəl olmağımızı, xeyir olmasını istəyir, hər şeyin gözəl olmasını istəyir. Həmçinin mükəmməl nizamdan da onsuz da bunu müsəlman açıqca görür. Buna görə də, Allaha tam təslimiyyət, Qurana tam təslimiyyət, Qurana tam tabe olmaq, gözəl əxlaqlı olmaq və səmimi olmaq. Bunun xaricində rahat olsunlar qardaşlarımız (hörmətli Adnan Oktarın Tempo telekanalına verdiyi müsahibədən, 28 sentyabr 2008-ci il).

# Möminlərin ümidvar halları
# Ümidvar olmaq mömin xüsusiyyətidir

Ümid etmək Quranda möminlərin mühüm xüsusiyyəti olaraq ifadə edilmişdir. Ümidvar olmaq eyni zamanda insanın imanının da göstəricisidir. İnsan imanı dərəcəsində Allahdan ümid edər, Onun rəhmətinə və sonsuz nemətlərinə qovuşmaq üçün böyük həsrət duyar. Çünki Allah iman gətirənlərə həm bu dünyada, həm də axirətdə çox böyük gözəlliklər vəd etmişdir. İnsan da Allaha olan etibarı, yaxınlığı, təslimiyyəti və səmimiyyəti dərəcəsində bu nemətlərə qovuşmağı ümid edər. Hər hadisənin yalnız Allahın istəyi ilə baş verdiyini bildiyi üçün, heç bir mövzuda kədərə, pessimizmə və ümidsizliyə qapılmaz. Allahın möminlərin dualarına cavab verdiyini bildiyi üçün, ən pis görünən bir hadisənin belə imtahan mühitinin parçası olduğundan və əvvəl-axır möminlər üçün mütləq xeyirə çevriləcəyindən şübhə etməz.

Ətrafımızda olan-keçən hər şey Allahın "ol" deməsi ilə baş verər. Gördüyümüz hər təsvir Allahın istəyi ilə yaradılar. Heç nə başıboş və nəzarətsiz buraxılmayıb. Hər şey Allahın müəyyənləşdirdiyi tale əsasında yaradılar.

Bunu dərk edən bir mömin, ən mənfi şərtlərdə, ən çətinmiş kimi görünən vəziyyətlərdə belə Allahın rəhmətindən və köməyindən ümidini kəsməz. Çətinliklər qarşısında səbir edən, Allahdan ümidini kəsməyən və heç bir şəraitdə Allahın hökmlərindən güzəştə getməyən insanlar həm dünyada, həm də axirətdə müjdələniblər.

Quranda möminlərin həmişə Allahdan ümid edən ruh halı içində olduqlarını görərik. Həqiqətən də səmimi şəkildə iman gətirən kimsə Rəbbimizi Quranda təsvir edildiyi kimi tanıyıb təqdir edər və bunun nəticəsində, Allahın öz üzərindəki rəhmətini və nemətini görər. Onun möminlərin dostu və köməkçisi olduğunu, onlara qarşı sonsuz şəfqətli və mərhəmətli olduğunu, Allahın saleh qullarını həm bu dünyada, həm də axirətdə böyük mükafatla müjdələdiyini və Allahın qətiyyən vədindən dönməyəcəyini bilər. Onun özü üçün həmişə xeyirli və gözəl olanı dilədiyini, özünə rəhmət və hidayət qapılarını açdığını, özünə bir çox mükafat qazanma fürsəti verdiyini görər.

Məhz, belə şüura sahib olan mömin Rəbbimizə qarşı həmişə ümüdvar münasibət göstərər, dünyada da, axirətdə də hər şeyin ən gözəlini və ən xeyirlisini Allahdan umar. Quranın bir çox ayəsində Allahın möminlərə dünyada və axirətdə gözəl qarşılıq verəcəyinin bildirildiyini görərik. Allah iman gətirənlərə Öz neməti, lütfünü və rəhmətini bəxş edəcəyini bəzi ayələrində belə müjdələmişdir:

İman gətirərək saleh əməl işləyənlərin, əlbəttə ki, günahlarının üstünü örtəcək və onları etdikləri əməllərin ən gözəli ilə mükafatlandıracağıq. (Ənkəbut surəsi, 7)

O, iman gətirib saleh əməl işləyənlərə cavab verər və Öz nemətini onlara artırar. Kafirlərə gəldikdə isə, onlar üçün şiddətli əzab var. (Şura surəsi, 26)

Şeytan sizi yoxsulluqla qorxudur və sizə çirkin həyasızlığı əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanma və bol lütf vəd edir. Allah geniş olandır, biləndir. (Bəqərə surəsi, 268)

Möminlərin duaları və istəkləri də ümid doludur. Ayədə bildirildiyi kimi onlar: **...öz Rəbbinə, qorxu və ümid içində dua edərlər... (Səcdə surəsi, 16**). Onsuz da dua etmək özlüyündə ibadət olduğu kimi, möminin Allaha qarşı ümidvar davranışının da bir göstəricisidir. Mömin Rəbbimizin özünə cavab verəcəyinə ümid edərək dua edər.

## Mömin cənnətə getməyə ümid edər

Adnan Oktar: İnsan Allahdan qorxar, ölümdən qorxmaz. Allahdan qorxarıq, yəni günahkar olmaqdan, xətalı olmaqdan çəkinərik. Lakin təbii ki, mömin ümidvardır. Biz cənnətə gedəcəyimizi ümid edirik inşaAllah Allahdan və Allaha qovuşmaqdır ölüm. Onsuz da bir məqsədimiz bu deyil? Biz bunun üçün yaşayırıq. Allahın rizasını qazanmaq üçün yaşayırıq, əgər Allahın rizasını qazanmaq üçün səy göstərdiksə ümidvar olaraq da ölərik və təbii ki, mömin normalda cəhənnəmə getməz, yəni səmimi olan gözəl əxlaqlı müsəlman cəhənnəmə getməz, lakin ümid və qorxu arasında olmalıdır.

Böyük sevincdir ölüm, Allaha qovuşmaqdır. Allaha qovuşmağı matəm havasında ifadə etmək çox anormal hərəkətdir. Allah üçün yaşayacaqsan, Allahı çox sevəcəksən, Allah səni yanına çağıracaq, hər kəs ağlamağa başlayacaq, yerə yatmağa başlayacaqlar, yəni bunun nə məntiqi var? Məsələn, əmisi çağırır, dayısı çağırır onun yanına getdikdə sevinirlər, bir qohumunun yanına getdikdə sevinirlər. Allah çağırdıqda isə, yerlərə atıb özlərini parçalayırlar, Allah çağırdıqda sevinilər, sevinc duyular, fəxr edilər, xoşbəxt olunar, ölüm matəm yeri deyil, sevinc yeridir. Ölü evi deyirlər, ölü evi sevinc evi olar, bir nemətdir, orada Quran oxunar, Allahdan bəhs edilər, axirətdən bəhs edilər, o insanın gözəl əxlaqından bəhs edilər, "Allah bizi də qovuşdursun" deyilər. Allah ən qısa zamanda xeyirlisi ilə bizi də inşaAllah qovuşdursun, ən qısa zamanda deməri k də xeyirlisi ilə bizi də Allah qovuşdursun deyərik və sevinc içində olarıq (hörmətli Adnan Oktarın Çay telekanalına verdiyi müsahibədən, 4 mart 2009-cu il).

## Ümidvar olmağın təməli: "taleyə təslimiyyət"

Çoxlu sayda insanın, başına gələn ani və gözlənilməz hadisələr qarşısında tez-tez ümidsizliyə qapıldığı görünər. Məsələn, işində müvəffəqiyyətsiz olan, çox sevdiyi bir əşyanı itirən və ya mütləq keçmək istədiyi dərsdən qalan bir insan, əgər bu mövzuları həyatının məqsədi halına gətiribsə heç gözləmədiyi bu nəticələrdən hər hansı birinə tab gətirə bilməz və böyük kədər yaşayaraq sarsılar.

Çünki bütün ümidlərini, hədəflərini, hadisələrin özü planlaşdırdığı kimi baş verməsinə başlamışdır. Lakin həyatı həmişə qurduğu plana görə işləməz, həyatın gedişatında gözləmədiyi bir çox hadisə ilə də qarşılaşa bilər.

Məsələn, memar olmağı çox istəyən bir insan memarlıq imtahanlarına çox yaxşı hazırlaşmışdır. Gələcəklə əlaqədar bütün planlarını irəlidə memar olacağını düşünərək qurmuşdur. Lakin heç gözləmədiyi bir şey olar və memarlıq əvəzinə başqa ixtisasa qəbul olar. Memar olmağı planlaşdırarkən, çox fərqli bir peşənin təhsilini almaq məcburiyyətində qalar.

İdmanla məşğul olan və həyatı boyu idmanla əlaqədar işlər görəcəyini planlaşdıran bir insan da gənc yaşında sağlamlığını itirərək idmanla əlaqəsini kəsmək məcburiyyətində qala bilər. Yaxud diqqətlə yeni bir ev döşəyən insan həmin evdə heç otura bilmədən borca görə evini satmaq məcburiyyətində qala bilər.

Yaşadığı həyatı boyunca bunlara bənzər bir çox gözlənilməz hadisə insanın başına gələ bilər. Əslində, bir an sonra belə nə olacağı, insanın nə ilə qarşılaşacağı bəlli deyil. Bu mövzuda tək bilinə biləcək şey, insanın yaşayacaqlarının, hələ o doğulmadan yüzlərlə, hətta milyardlarla il əvvəldən bəlli olmasıdır. Daha doğrusu, insanın yaşayacağı hər an "zamansızlıqda" müəyyəndir. İnsan günü, saatı gəldikdə həmin hadisəni mütləq yaşayacaq. Bu, onun taleyidir. Allahın müəyyənləşdirmiş olduğu tale mütləq yaşanacaq. Bu vəziyyəti gündəlik həyatdan bir nümunə ilə belə açıqlaya bilərik:

Zehnimizdə iki avtomobilin bir-biri ilə toqquşduğu anı canlandıraq. Ehtimal ki, hər iki tərəfin də mütləq tezliklə çatmaq istədikləri yerlər var. Bəlkə evdə özlərini gözləyən ailələrinin yanına, bəlkə də çatmaq məcburiyyətində olduqları işlərinə getmək istəyirlər. İki tərəf də müəyyən saatlarda evlərindən çıxmış, avtomobillərinə minmişdirlər.

Bəlkə qəzanın baş verdiyi küçəyə girmədən əvvəl qısamüddətli qərarsızlıq anı yaşamış, ən sonunda da hadisənin baş verdiyi küçəyə daxil olmağa qərar vermişdirlər. Sürücülərdən biri və ya hər ikisi də həyatları boyu avtomobillərini çox diqqətlə idarə edən, tədbirli insanlar ola bilər. Lakin tam o əsnada biri gözünü yoldan ayırıb avtomobilin maqnitofonu və ya

başqa hər hansı mövzu ilə maraqlanar. Hər şey o hadisənin olması üçün xüsusi təşkil edilmişdir, hər təfərrüat insanları o hadisəyə aparar.

Ümumiyyətlə yaşananlar bir an içində baş verər. Avtomobillərin bir-biri ilə toqquşması, gözlənilməyən hadisənin yaşanması çox qısa müddətdə gerçək ola bilər. Halbuki o hadisənin hər təfərrüatını taledə Allah yaratmışdır. Avtomobilləri idarə edən insanların qəza anında diqqətlərinin dağılmasına, maqnitofonda çalan musiqiyə, qəzanı edənlərin paltarlarına qədər hər şey taledə əvvəlcədən mövcuddur. Qəzanı törədəcək insan o gün o paltarı geyər, evindən çıxar, qəzanın baş verdiyi küçəyə daxil olar və həmin qəzanı mütləq törədər. Heç nə o qəzanın yaşanmasına mane ola bilməz.

Allah bu cür təqdir etmişdir. Bu mövzuda, "kaş ki, o küçəyə girməsəydim", "kaş ki, maqnitofonla deyil, yol ilə maraqlansaydım" kimi məntiqlər irəli sürmək olduqca səhv olacaq. Bu yanlış dünyagörüşü ilə heyfislənmələrin, peşmanlıqların sonu da gəlməz. Qəzanın səbəbi axtarılsa, bir çox səbəb göstərilə bilər. Lakin işin əsli, o hadisə taledə səbəbləri ilə birlikdə hazır vəziyyətdə yaradılmışdır.

Bu həqiqətlə ilk dəfə üz-üzə gələn insan "bəs o zaman nə edə bilərəm?" deyə düşünə bilər. Madam ki, hər şey taledə hazır vəziyyyətdə yaradılıb və hamısını Allah bilir, bu təqdirdə insan necə davranmalıdır?

Yuxarıdakı sualların cavabı, hər şeyin doğrusunu öyrəndiyimiz Quranda bizə çox açıq şəkildə açıqlanmışdır. İnsanın özü üçün hazırlanan taleyə təslim olması, yaşadıqlarında həmişə xeyir axtarması, kədərlənməməsi, ümidsizliyə qapılmaması və hər şərtdə şükür edən qul olması Qurana görə ən gözəl və ən doğru davranış olacaq:

De: "Allahın bizim üçün yazdıqlarından başqa bizə heç nə üz verməz. O bizim mövlamızdır. Həmçinin möminlər yalnız Allaha təvəkkül etməlidirlər!" (Tövbə surəsi, 51)

Allah bütün kainatı, planetləri, Günəşi, Ayı, ağacları, okeanları, insanları, heyvanları, bir sözlə, canlı-cansız hər şeyi yaradan olduğu kimi, bütün hadisələri də ən incə təfərüatlarına qədər yaradandır. Bu həqiqət Quranda belə bildirilir:

Məhz Rəbbiniz olan Allah budur. Ondan başqa ilah yoxdur. Hər şeyi Yaradandır, elə isə Ona ibadət edin. O, hər şeyə vəkildir. (Ənam surəsi, 102)

Allaha iman gətirən, axirətin varlığına inanan və Allahdan qorxan müsəlman hər şeyi yaradan Rəbbimizə təslim olar. Yəni başına gələn hər şeyə qarşı olduqca təslimiyyətli olar,

hər hansı şeydən ötrü ümidsizliyə qapılmaz. Çünki hər şeyi Allah idarə edər. Rəbbimiz isə onun ən böyük dostu və vəkilidir. Müsəlman Allahdan gəldiyinə iman gətirdiyi üçün, hadisələr qarşısında təşvişə, ümidsizliyə qapılmasının çox yanlış davranış olacağını bilər. Allahın yaratmasının mükəmməlliyindən xəbərdardır; qarşılaşdığı hadisənin ən mükəmməl şəkildə yaradıldığını düşünər. Bəzən hadisələr öz əleyhinəymiş kimi görünsə də, o bütün bunlarda özü üçün xeyir olduğunu bilər. Möminlərin reaksiyaları ilə taleyə təslim olmayan insanların hadisələr qarşısında verdikləri reaksiyalar bir-birlərindən çox fərqli olar. Məsələn, mömin özü üçün çox xeyirli olacağını düşündüyü bir iş görüşünə çatmaya bilər və buna görə də, iş imkanını itirmiş ola bilər.

Lakin taleyin yaşandığını çox yaxşı bildiyi və çalışdığı halda görüşə yetişə bilməməsinin Allahın idarəsində olduğunu bildiyi üçün: "deməli, bu iş mənim üçün xeyirli deyilmiş" deyə düşünər və hadisənin o cür yaşanmış olmasına şükür edər. Allahın özü üçün daha xeyirli bir nəticə yaradacağını ümid edər. Görüşə gecikmə səbəbi olaraq, tıxacı və ya partlayan təkərini düşünməsinin çox yanlış olacağını bilər. Belə ki, Allah istəsə tıxac yaranmaz və ya heç bir təkər partlamaz.

Tıxac, partlayan təkər və ya buna bənzər şərtlər, əlbəttə ki, insanın gedəcəyi yerə gecikməsinə görünən səbəb təşkil edərlər. Lakin görünən şərtlərdən olduqca əhəmiyyətlisi, insanın neçə illər əvvəl onun üçün hazırlanmış və olması lazım olduğu şəkildə işləyən taleyidir. Yuxarıdakı nümunədə bəhs olunan insanın taleyini Allah "o görüşməyə qatılmamış" kimi yazmışdır. Dolayısilə heç bir şərtdə qatıla bilməsi qeyri-mümkündür.

Əgər hər hansı maneə meydana gəlirsə, bütün bunlar, Allah möminlərə bir xeyir istədiyi üçün olur. İnsanın bu təslimiyyəti tam qavraya bilməsi üçünsə, Allahı tam mənası ilə dost və vəkil tutması və Ona səmimiyyətlə yönəlməsi lazımdır.

Allahın Quranda insanlara əmr etdiyi əxlaq modelinin ən mühüm xüsusiyyətlərindən biri (insanın hansı şərtlə qarşılaşsa da) heç vaxt ümidsizliyə və yanlış düşüncəyə qapılmamasıdır. Ümidsizlik, imansızlığın və ya zəif imanın göstəricisidir. Hadisələri Allahın yaratdığını, hər şeyin müəyyən tale əsasında baş verdiyini qavraya bilməməyin nəticəsidir. Bu, Allahın Quranda önəmlə bildirdiyi səhvlikdir. Çünki ümidsizliyin altında Quran əxlaqına müxalif ruh və düşüncə tərzi yatır. Bu da Allahın qadağan etdiyi davranışdır. Qurana baxdığımızda Allahın bir çox ayədə insanlara təvəkküllü olmağı, ümidvar olmağı, hər hadisəni xeyir gözüylə qarşılamağı tövsiyə etdiyini görərik.

Möminlər insanlar üçün ən ağır deyilə biləcək, məsələn, yaralanma, bütün mal-dövlətini itirmə kimi gözlənilməyən hadisələrlə də qarşılaşdıqları zaman olduqca təvəkküllü, səbirli görünüş göstərərlər. Bunun səbəbi hadisələri Allahın yaratdığını bilmələridir. Ətrafımızda gördüyümüz və görmədiyimiz hər cür canlını mükəmməl şəkildə yaradan, hər

birinə həyat verən Allahdır. Hər şeyi yaradan Allah, yer üzündə yaşayan və yaşamış olan hər insanı və hər birinin taleyini də ayrı-ayrı yaratmışdır.

Bizdən minlərlə kilometr uzaqda, tam fərqli qitədə, dünyanın digər ucundakı bir ölkədə yaşayan insanın yaşadığı ən incə təfərrüatlar da Allahın nəzarətində baş verir. Allah hər şeyi əhatə etmişdir, eləcə də, hər şeyi və hər məkanı görür, hər səsi eşidir. Üstəlik, onsuz da, "məkan", "səs", "görünüş" kimi anlayışları yaradan bilavasitə Allahdır.

Beləliklə, hər şey Allahın nəzarətində olduğu halda, insanın başına gələn hadisə qarşısında ümidsizliyə qapılması çox yanlış hərəkət olar. Çünki həmin hadisə, insan istəsə də, istəməsə də, mütləq baş tutacaq. Həmçinin bütün hadisələr insanın xeyirinə baş verir. Burada əsl əhəmiyyətli olan, hadisələrdəki xeyiri görə bilməkdir. Xeyir axtaran insan, əslində hadisələrin nə qədər mükəmməl olduğunu görəcək və imanı artacaq.

Ümidlə ümidsizlik arasında da buna bənzər fərq var. Ümid ağla və məntiqə nə qədər uyğundursa, ümidsizlik də bir o qədər zidddir. Məsələn, insan çox yaxşı hazırlaşdığı bir imtahanda müvəffəqiyyət qazanmamış ola bilər. Çox çalışmış olmasına baxmayaraq, imtahanı keçə bilmədiyi üçün sarsıldığını, ümidsizliyə qapıldığını fərz edək. Bunun ona mənəvi və maddi cəhətdən heç nə qazandırmayacağı aydındır. İnsan ümidsiz ruh halı ilə heç nəyə nail ola bilməz. Üstəlik, yaşadığı əhval pozğunluğu, dərd və sıxıntıdan ötrü ruhi və bədən cəhətdən də zərər görəcək.

Halbuki Allah onun üçün bəlkə də başqa bir xeyiri istəyir. Bəlkə də onun üçün həmin il o universitetdə oxuması deyil, imtahana təkrar hazırlanması xeyirlidir. Bəlkə növbəti il daha yaxşı universitetə daxil olacaq. Yaxud daxil olmaq istədiyi universitet, qəbul olmaq istədiyi peşə sahəsi gələcək həyatında onun üçün sıxıntı və çətinlik yaradacaq.

İnsanlar həyatları boyu bəzən xeyirini bilmədikləri bu cür hadisələrlə qarşılaşarlar. Çox istədikləri işə girə bilməz, çox ehtiyacları olan yüklü miqdarda pulu itirər, böyük zəhmətlə qazandıqları pulla aldıqları qiymətli əşyaları oğurlanar və ya sevdikləri bir insanı itirərlər... Buna bənzər hadisələr hər insanın başına gələ bilər. Allah ayədə insanların malları və canları ilə sınanacaqlarını ifadə edib. Ayələrdən səbir edənlərin xeyirə nail olacaqları, üsyan edən, ümidsizliyə qapılanların isə itki ilə qarşılaşdıqları aydın olur. Səbir edən və səbri müqabilində cənnətə gedənlərdən olmaq üçün, əlbəttə, "ümidvar olmağın əhəmiyyətini" çox yaxşı qavramaq lazımdır.

Ümidvar olmağın, **"Allahın mərhəmətindən ümidinizi kəsməyin. Çünki Allahın mərhəmətindən ancaq kafirlər ümidlərini kəsər", (Yusif surəsi, 87),** ayəsi ilə fərz olduğunu, yəni Allahın əmri olduğunu, əksinin isə Allahın bəyənmədiyi əxlaq olduğunu bilmək və Allahı dost tutub, Onun rizasını qazanmağa çalışmaq lazımdır.

# Taleyə təslimiyyət həyatı gözəlləşdirən nemətdir

**Adnan Oktar**: Allah sonsuz ağıldır, sonsuz gücdür. Sonsuz olan hər şeydir Allah. İnsanlar qul kimi yaradılarlar. Qul kimi yaradıldığı zaman, taleyi bəlli olaraq yaradılar. Yəni başlanğıcı vardır insanın. Lakin sonu yoxdur. Sonu cənnətə və ya cəhənnəmə gedər. Lakin burada son yoxdur. Məsələn, biz hazırda sizinlə danışırıq. **Bu 2007-ci ildə olur, lakin hələ siz dünyaya gəlmədən burada bu danışığı aparmışdınız. Mən də hələ dünyaya gəlmədən burada bu danışmağı aparmışdım. Sözlər bəlli idi. Məsələn, neçə stəkan su içəcəyim, buradakı çiçəklərin sayı, bir qədər əvvəl külək salfet kağızı yerə saldı, müxtəlif yerlərə yayıldı o. O da taledə yerləri bəlli idi. Bütün bu təfərrüatlar bəllidir. Həmçinin bu qətiyyən dəyişməz. Biz qul olduğumuz üçün taleyə tabe olarıq. Allahın yaratdıqlarını görərik.**

**Əl-Cəzirə**: İndi hadisə daha çətinləşdi.

**Adnan Oktar**: Xeyr, daha gözəlləşdi. Allah bizi idarə edir. Bu mövzuda heç zəhmət çəkməməyimiz üçün, Allah taleyi yaratmışdır. Çox böyük nemətdir. Məsələn, sizin soruşacağınız hər sual taledə bəllidir. Mənim verəcəyim hər cavab taledə bəllidir. Hərflərinə qədər bəllidir. Buna görə də, çətin olan heç nə yoxdur. Kameraların gedəcəyi yerlər bəllidir. Buradan keçəcək gəmilər bəllidir. İnsanın edəcəyi, çətinlik çəkəcəyi heç nə yoxdur. Sadəcə Allaha təslim olmalıdır, taleyə təslim olmalıdır. Allahın göstərdiyi gözəl görünüşləri seyr etməli, Ona şükür etməli, həmd etməlidir. Onun böyüklüyünü söyləməlidir. Allahı təqdis etməlidir. SübhənAllah deməlidir. Bu. Yəni fərzləri yerinə yetirməlidir (hörmətli Adnan Oktarın Əl-Cəzirə telekanalına verdiyi müsahibəsindən, avqust 2007-ci il).

## Allahın bəxş etdiyi sonsuz nemətlər, Ona güvənməyi və rəhmətindən ümidvar olmağı tələb edir

Möminin Allaha təslimiyyətini artıran ünsürlərdən biri də Allahın "Vədud" sifətini düşünməkdir. Allahın bu sifəti "çox sevən" mənasını verir. İnsanı yaradan, ona ruzi verən, sevdiyi hər şeyi ona verən, güldürən, görə bilməsini, eşidə bilməsini, düşünə bilməsini təmin edən, dua etdiyi zaman dualarını eşidib qəbul edən və ona daha bir çox nemətlər verən Allahdır.

Allah insanlar üçün ən gözəl rənglərdə, ən gözəl dadlarda yemək və içkiləri yaradandır. Çiyələyi, bananı, alçanı, portağalı, qarpızı, qovunu, pomidoru, kökü, bibəri, qarğıdalını, dondurma və ya şokolad növlərini və insanlara zövq verən daha minlərlə ləzzəti Allah yaradır. Bunlarla yanaşı, Allah insanların xoşuna gələn heyvanları, bitkiləri, ağacları, dənizi, çimərlikləri, idman növlərini, musiqi növlərini, izləyib bəyəndiyi filmləri, xoşladığı avtomobilləri və burada saymaqla bitirilə bilməyəcək bütün gözəllikləri də yaratmışdır.

Bunlara baxmayaraq, insanların çoxu nankorluq edər, Allaha tam şəkildə güvənə bilməz və Allahın rəhmətindən ümidlərini kəsərlər. Bu vəziyyət bir ayədə belə ifadə edilir:

Sizə istədiyiniz hər şeyi verdi. Əgər Allahın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqət budur ki, insan çox zalım, çox nankordur. (İbrahim Surəsi, 34) (İbrahim surəsi, 34)

Allah insanlara istədikləri hər şeyi vermişdir. İnsan öz nəfsində səmimi şəkildə təfəkkür etdikdə bu həqiqətə özü də şahid olacaq. Bunun qarşılığında Allahın insanlardan istədiyi şey təslimiyyətli, əlindəki nemətlərə görə qürurlanmayan və ya itirdiklərindən ötrü ümidsizliyə qapılmayan, dünya ehtiraslarından uzaq, məmnun ruh halı içində Ona yönəlmələridir, axirətdəki həqiqi və əbədi həyatlarını düşünmələri və buna görə davranmalarıdır.

Allah ayələrində bu dünyanın imtahan yeri olduğunu da ifadə edir. Çünki bu dünya həqiqi yurd deyil, əsil əbədi qalınacaq yer olan axirət yurdu üçün hazırlıq görmə, ruhi və əxlaq cəhətdən yetkinləşmə məkanıdır. Bu vəziyyətdə insanlar yaşadıqları müddət boyunca müxtəlif imtahanlarla qarşılaşacaqları üçün, Allaha təvəkküllü olmalı və hər cür imtahanla sınana biləcəkləri həqiqətinə hazır olmalıdırlar.

Özləri üçün hazırlanmış taleyi seyr edərkən, səbir edib ən gözəl rəftarı göstərənlər həm dünyada, həm də axirətdə qazanclı çıxacaq və bir çox xeyirlə qarşılaşacaqlar. Özlərini

hadisələrin gedişatına buraxıb, taledən qafil şəkildə Qurana zidd reaksiyalar göstərənlər isə özlərinə zülm etmiş və Allahın rəhmətindən uzaqlaşmış olacaqlar.

Allah dünyaya bağlı, gələcək qayğısı olan, həris, hadisələri özünün idarə etdiyini sanaraq təkəbbürlənən və ən kiçik problem qarşısında ümidini itirib, nankorluq edənlərdən isə razı olmadığını bildirmişdir:

Əgər insana Özümüzdən bir mərhəmət daddırsaq, sonra da ondan bunu geri alsaq, o, ümidini kəsmiş nankor olar. Əgər başına gələn müsibətdən sonra, ona firavanlıq daddırsaq: "Bəlalar məndən sovuşdu!" deyər. Çünki o, lovğadır. Səbir edən və saleh əməllər işləyənlər istisnadır. Məhz onlar üçün bağışlanma və böyük mükafat var. (Hud surəsi, 9-11)

Məhz möminlərin hər vəziyyətdə çox təvəkküllü olmaları, sevinclərindən və şövqlərindən heç nə itirməmələrinin sirri, iman gətirmələri və Allaha çox güvənmələridir. Möminlər çətin kimi görünən hadisələr qarşısında hər şeyin Allaha aid olduğunu, Allahın verdiyini və Allahın alacağını qavramış olmağın şüuru ilə hərəkət edərlər.

# Könüllü təslimiyyət səmimi iman şərtidir

Adnan Oktar: Bildiyiniz kimi insanlar pula, mala, mülkə çox maraq göstərirlər, instinkt olaraq qorxunc ehtiras var. Ən çox ehtiras etdiyi şeydən, insanlara payladığın zaman, ruhları yetkinləşmiş olur, yəni ruhlarındakı o azğın duyğular sakitləşmiş olur, şəfqəti və sevgini daha şiddətli dadmış olur və Allaha təslimiyyətin zövqünü və gözəlliyini görmüş olur. Məsələn, bol pulu olan var-dövlət sahibinin ətini qopartmaq kimidir ondan pul istəmək, yəni "canımı istə, malımı istəmə" məntiqinə sahib olur onlar və çox şiddətli əzab da çəkər bir şeyə pul xərcləyərkən, yəni xəsislikdən özləri də məcburdur, lakin bunu edərlər.

Müsəlman Allah yolunda bol-bol xərclədiyi zaman, ruhunda fərəhlik və rahatlanma olur, həmçinin Allaha daha yaxınlaşar. Allah onu vəsilə edir, “bunu etsəniz sizin hidayətinizi artıraram” deyir Allah; mömində hidayət artımı olur, qəlbi fərəhlənir, ağlı açılır, həmçinin cəmiyyətdə nizam yaranır, zəngin və kasıbların sayı bərabərləşir, yəni tarazlıq meydana gəlmiş olur, düzgünlük meydana gəlmiş olur və ictimai ədalət yaranmış olur, bunun üçün də infaq, yəni ehtiyacdan artıq qalanı paylamaq müsəlmanın ən mühüm vəzifələrindəndir. Yəni cəmiyyəti ən gözəl hala gətirən, dinc hala gətirən, mehribanlığı artıran, sevgi ruhunu təşviq edən gözəllikdir, bu hz. Mehdi (ə.s) dövründə ən şiddətli olacaq. O qədər çox hədis vardır ki, hz. Mehdi (ə.s) dövründə malın bollaşacağı, hətta pula ehtiyac qalmayacağı, yəni mal bolluğundan insanlar nə edəcəklərini bilmirlər. Mal bolluğu problem olur, kasıblıq deyil, əksinə mal bolluğunun problem yaranacağı bildirilir Axırzamanda (hörmətli Adnan Oktarın Tempo telekanalına verdiyi müsahibədən, 3 fevral 2009-cu il).

## Allahın möminlərə verdiyi gözəl vədləri ümidvar olmağı tələb edir

Allah iman gətirənlərə həm bu dünyada, həm də axirətdə çox böyük nemətlər verəcəyini vəd etmişdir. İnsan da Allaha olan imanı, yaxınlığı, təslimiyyəti və səmimiyyəti nəticəsində bu nemətlərə qovuşmağı ümid edər. Nemətləri də Allaha yaxınlaşmağa, şükür etməyə, Onun sonsuz sifətlərinin təcəllilərinə, gözəlliklərinə şahid olmağa vəsilə kimi görər. Buna görə də, Allahdan daha çox nemətə sahib olmağı istəyər. Allah gözəl davrananlara gözəllik bəxş edən olduğu üçün, möminlər nemətlərin davamlı artmasını istəyər və bunlarla Allaha yaxınlaşarlar.

Allaha dərin imanla iman gətirən və Onun özündən istədiklərini yerinə yetirən insanın vicdanı çox rahatdır. Dünya həyatı boyu Allaha qarşı göstərdiyi bağlılıq əvəzində, Rəbbimizin özünü cənnətlə mükafatlandıracağından yana böyük ümid içində olar. Sahib olduğu bu ümid, həyatının hər anına əks olunar. Hələ dünyada yaşayarkən "cənnətə qovuşmuş kimi" sevincli, şən və həyəcan doludur. Çünki Allahın dost tutmuş, Onun rizasını qazanmaq üçün çalışmış, nəfsini pisliklərdən təmizləmiş və həmişə xeyir ardınca qaçmışdır. Sonunda isə, Rəbbimizə qovuşacaq. Bunun həyəcanını daşıyan mömin, axirətdə Allahın rizasını qazanmış şəkildə ona qovuşmaqdan yana böyük ümid içindədir.

Allah bir çox ayəsində iman gətirənləri dəstəyi və cənnəti ilə müjdələyir. Allah Öz yolunda xidmət edən bütün müsəlmanları mütləq mükafatlandıracaq. Bu həqiqəti bilən müsəlmanlar da etdikləri hər saleh əməlin, hər cür yaxşılığın, gözəl əxlaqın və Qurana bağlılıqda qətiyyətli olmağın qarşılığını mütləq Allah qatında alacaqlarını bildiklərindən təvəkkülün, təslimiyyətin, səbrin və imanın gözəlliyini yaşayacaqlar.

Məhz belə şüura sahib olan mömin Rəbbimizə qarşı həmişə ümidvar olar. Dünyada və axirətdə hər şeyin ən gözəlini və ən xeyirlisini ümid edər. Quranın bir çox ayəsində Allahın möminlərə gözəl qarşılıq verdiyini, onlara nemət, lütf və rəhmətini vəd etdiyini görürük:

İman gətirərək saleh əməl işləyənlərin, əlbəttə ki, günahlarının üstünü örtəcək və onları etdikləri əməllərin ən gözəli ilə mükafatlandıracağıq. (Ənkəbut surəsi, 7)

O, iman gətirib saleh əməl işləyənlərə cavab verər və Öz nemətini onlara artırar. Kafirlərə gəldikdə isə, onlar üçün şiddətli əzab var. (Şura surəsi, 26)

Müsəlmanlar bəzən yer üzündəki imtahanın tələbi olaraq çətinliklərlə də sınana bilər, bəzi çətinliklərə məruz qala bilərlər. Quranda möminlərin müxtəlif dövrlərdə fərqli təzyiq və hücumlara məruz qaldıqlarını, təzyiq altına alındıqlarını, bəzən həbs olunduqlarını, həbsxanaya girdiklərini, hətta tarixdə bir çox müsəlmanın öldürülmüş olduğunu görürük. Lakin əksər hallarda göz dağı vermək, qorxutmaq, şövqü yox etmək, din əxlaqını yaşamaqdan imtina etdirmək üçün, təzyiq altına alınmağa çalışılan möminlərin, bu çətinliklər qarşısında ümidləri heç vaxt yox olmaz. Başlarına bu cür hadisələr gəldikdə inkarçıların gözlədiklərinin əksinə, daha çox şövqlənərlər. Allahın, möminlərin inkar edənlər tərəfindən təzyiq altına alınmağa çalışılacaqlarına dair ayələrini xatırlayar, öz üzərlərində bu ayələrin təcəlli etməsindən dolayı böyük həyəcan duyaraq şükür edərlər. İnkar edənlər onları qorxutmuş olduqlarını zənn edərkən, möminlər imanlarının sevincini yaşayır, Allahın özlərinə olan vədlərini təfəkkür edirlər.

Allah ayələrində şirk qoşmayacaqları təqdirdə, möminlərə mütləq inkarçılar qarşısında qələbə bəxş edəcəyini və onları qorxularından sonra dinclik və əmin-amanlığa qovuşduracağını vəd edir:

Allah sizlərdən iman gətirib saleh işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri “güc və hakimiyyət sahibi” etdiyi kimi onlar da yer üzündə “güc və hakimiyyət sahibi” edəcək, özləri üçün seçib bəyəndiyi dinini onlarda hakim edib möhkəmləndirəcək və onların qorxusunu sonra əmin-amanlıqla əvəz edəcək. Onlar yalnız Mənə ibadət edər və heç nəyi Mənə şərik qoşmazlar. Bundan sonra inkar edənlər – məhz onlar fasiqlərdir. (Nur surəsi, 55)

Allaha və ayələrinə səmimi qəti məlumatla iman gətirən möminlər inkar edənlərin qurmağa çalışdıqları tələlər və təzyiqləri qarşısında Allahın bu vədini xatırlayar, ümid və sevinc dolu şəkildə səbir edərlər. Möminlərin bu davranışları isə inkar edənlər üçün ürək ağrısı olar. Möminlərin bu təvəkküllü rəftarları onlara Allahın qəzəbini və özlərini gözləyən dünya və axirət əzabını hiss etdirər. Təsviredilməz qorxu və narahatlığa qapılarlar.

Quranda möminlərin həmişə Allahdan ümid edən ruh halı içində olduqlarını görərik. Səmimi şəkildə iman gətirən insan, Rəbbimizi Quranda təsvir edildiyi kimi, tanıyıb təqdir edər və bunun nəticəsində, Allahın öz üzərindəki rəhmətini və nemətini görər. Allahın ayələrinə bağlı qalan insan, onun möminlərin dostu və köməkçisi olduğunu, onlara qarşı sonsuz şəfqətli və mərhəmətli olduğunu, Allahın saleh qullarını həm bu dünyada, həm də axirətdə böyük mükafatla müjdələdiyini və Allahın qətiyyən vədinə xilaf çıxmayacağını bilər. Onun özü üçün həmişə xeyirli və gözəl olanı istədiyini, ona rəhmət və hidayət qapılarını açdığını, önünə bir çox mükafat qazanma fürsəti çıxartdığını görər.

Möminlərin özlərinə hər vaxt gözəllik müjdələyən Rəbbimizə qarşı olan şövqlü və ümidvar halları isə, Fəth surəsindəki ayədə belə təsvir edilir:

Məhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq istəyən görərsən... (Fəth surəsi, 29)

Ayədə göründüyü kimi, Allahın vədlərinə qarşılıq möminlərin rəftarı, həyatları boyu Rəbbimizi məmnun edəcək davranışlar göstərmələridir. Özlərinə dünyada və axirətdə verilən müjdələrə qarşılıq möminlər, həmişə Allahın elçiləri və kitabları ilə bildirdiyi əmrlərinə tabe olar, Onun məmnun olacağı gözəl əxlaqı ən gözəl şəkildə yaşamaq üçün səy göstərərlər. Allahın mərhəmətli, anlayışlı, ədalətli, səbirli, ümidvar, təvazökar, köməksevər, fədakar qullarından məmnun olduğunu bilər və bu əxlaqın ən üstününə sahib olmaq üçün bir-birləri ilə yarışarlar. Çünki Allah qullarının cənnətə qovuşma ümidi ilə yarışmalarını əmr edib:

Rəbbiniz tərəfindən bağışlanmağa və genişliyi göylər və yer qədər olan Cənnətə (qovuşmaq üçün) yarışın, belə ki, o, müttəqilər üçün hazırlanmışdır. Onlar, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyənlər, qəzəblərini boğanlar və insanlardan bağışlama ilə (vaz) keçənlərdir. Allah yaxşı iş görənləri sevər. Həmçinin “çirkin həyasızlıq” etdikləri və ya nəfslərinə zülm etdikləri zaman, Allahı xatırlayıb dərhal günahlarının bağışlanmasını istəyənlərdir. Günahları Allahdan başqa kim bağışlaya bilər? Bir də onlar gördükləri (pis işlərdə) bilə-bilə israr etməyənlərdir. Məhz bunların mükafatı, Rəbbindən bağışlanma və içində əbədi qalacaqları altından çaylar axan cənnətlərdir. (Belə) edənlərə necə də gözəl qarşılıq (mükafat var). (Ali İmran surəsi, 133-136)

Rəbbiniz tərəfindən bağışlanmağa və cənnətə (qovuşmaq üçün) “səy göstərib yarışın”, belə ki, (o cənnət) genişliyi göyün və yerin genişliyi qədər olub, Allaha və Onun Rəsuluna iman gətirənlər üçün hazırlanmışdır. Məhz bu, Allahın lütfüdür ki, onu istədiyinə bəxş edər. Allah böyük lütf sahibidir. (Hədid surəsi, 21)

Allah səmimi qullarına dünyada gözəl həyat, üstünlük və zəfər, axirətdə isə, sonsuz gözəlliklərlə dolu, əbədi yurd olan cənnəti vəd etmişdir. Ayələrdə belə bildirilir:

Ədn cənnətləri ki, Rəhman Öz qullarına qeybdən vəd etmişdir. Şübhəsiz ki, Onun vədi mütləq yerinə yetəcəkdir. (Məryəm surəsi, 61)

Allah mömin kişilərə və mömin qadınlara içində əbədi qalmaq üçün, altından çaylar axan cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəd etmişdir. Allahdan olan razılıq isə ən böyükdür. Məhz, böyük qurtuluş və xoşbəxtlik budur. (Tövbə surəsi, 72)

Bununla iman gətirənlərin bir-birlərini müjdələməsini əmr edən Allah, cənnəti hələ dünyada yaşayarkən mömin üçün sevinc və ümid vəsiləsi etmişdir. Cənnət, bir insanın arzu edə biləcəyi, xəyal edə biləcəyi, sahib olmaq istəyə biləcəyi bütün gözəlliklərin və Allahdan rəhmət olaraq bunlardan qat-qat üstün şeylərin olduğu, sözlərlə tərif edilə bilməyən gözəllikdəki məkandır.

Orada müsəlmanlar istədikləri hər şeyi edə biləcək və sevdikləri insanlarla birlikdə əbədi xoşbəxtlik içində yaşayacaqlar. Cənnət, heç bir qüsurun olmadığı, maddi-mənəvi bütün çatışmazlıqlardan uzaq yerdir. Quranda cənnətdən; "altından çaylar axan", "hara baxılsa nemət və böyük mülklə" qarşılaşılan, **"kəsilib azalmayan və qadağan edilməyən" nemətlərlə dolu məkan kimi bəhs edilmişdir. Həmçinin: "...Orada nəfslərin istədiyi və gözlərin ləzzət (zövq) aldığı hər şey var..." (Zuxruf surəsi, 71) deyə xəbər verilmişdir.** Cənnət mənəvi cəhətdən də sonsuz nemətlərlə dolu məkandır. Allah cənnətdə boş söz eşidilməyəcəyi, kin və qəzəbin olmayacağı, hər an sevinc və xoşbəxtlik dolu məşğuliyyət olacağı və ən önəmlisi də inananlara Allahdan sözlü salam olduğu xəbər verilmişdir. Quranda cənnətə girəcək olan möminlərə belə səsləniləcəyi bildirilir:

Ey mutmain (razı qalmış) nəfs, Rəbbinə, razı qalmış və razılıq qazanmış halda qayıt. Artıq qullarımın arasına daxil ol. Cənnətimə gir. (Fəcr surəsi, 27-30)

Başqa ayələrdə isə cənnətə girəcək olan möminlərin yaşadıqları sevinc, xoşbəxtlik və Allaha olan şükürləri belə xəbər verilmişdir:

Onlar dedilər: "Bizə verdiyi vədinə sadiq qalan və bizi bu yerə varis etmiş Allaha həmd olsun ki, cənnətin istədiyimiz yerində sakin ola bilirik. (Saleh) əməllər işləyənlərin mükafatı necə də gözəldir. Mələkləri isə, ərşin ətrafını əhatə edənlər olaraq, Rəbbinə həmd ilə təqdis etdiklərini görəcəksən. Aralarında haqq ilə hökm verilmiş və "Aləmlərin Rəbbinə həmd olsun" deyilmişdir. (Zumər surəsi, 74-75)

Əlbəttə, cənnətlə müjdələnmiş olmaq, insanın həyatında qazana biləcəyi ən böyük hədiyyədir. Buna görə də, möminlər bu həqiqəti heç vaxt unutmadan, yadda saxlamaq üçün dua edərlər. "Cənnət sevinci" Allahın dünyada müsəlmanlara verdiyi böyük nemətdir. Belə ki, insan özünə böyük miras qaldığını eşitdiyi zaman, birdən necə sevinirsə, Allahın əbədi cənnət yurduna varis etdiyini müjdələdiyi möminlər bundan olduqca böyük sevinc yaşayarlar. Dünya həyatının sürətlə keçdiyini, Allahın səmimi olanlara müjdələdiyi cənnətə qovuşmağın çox yaxın olduğunu bilərlər.

Bir möminin (orta hesabla 60 il yaşadığını düşünsək), məsələn, o 30 yaşındadırsa təxminən (3 x 10), 40 yaşındadırsa (4 x 10) ili qalmışdır. Nəticədə, 100 yaşına qədər də yaşasa mütləq öləcək və Allahın icazəsi ilə əbədi olan, heç vaxt yox olmayacaq cənnətə qovuşacaq. Sonsuz zamanlar boyu, sevdiyi insanlarla birlikdə, Allahın təcəllilərini görərək, dünyada bənzəri görülməmiş gözəlliklərlə və bənzərsiz təmizlik içində, xoşbəxt və sevincli həyat yaşayacaq.

Üstəlik, bu sonsuz nemətlərə qovuşa bilməsi üçün, dünyada ondan istənilənləri etməsi çox asandır. Hər an bu gözəlliklərə qovuşmağın ümid dolu sevinci ilə, Allahın əmrlərinə tabe olması, ibadətlərini yerinə yetirməsi və Quran əxlaqını yaşamaq üçün səy göstərməsi lazımdır ki, bu onsuz da insanın dünyada da ən çox zövq alacağı həyat tərzidir. Allahın qullarından istədikləri aşağıdakı ayələrdə belə bildirilmişdir:

Əsrə and olsun; həqiqətən insan, ziyan içərisindədir. Lakin iman gətirib saleh əməllər görənlər, bir-birlərinə haqqı tövsiyə edənlər və bir-birlərinə səbirli olmağı tövsiyə edənlər başqa. (Əsr surəsi, 1-3)

Bu ayələrdən göründüyü kimi, insanın ziyandan xilas olması və əbədi cənnətə layiq qul ola bilməsi üçün, saleh əməllər işləməsi və digər insanlara da Allahın əmrlərini tövsiyə etməsi lazımdır. Həmçinin Allah saleh qullarına nemət olaraq cənnətlə yanaşı, dünyada da gözəllik vəd etmişdir. Dünyada da səmimi müsəlmanları gözəl həyatla yaşadacağını bildirmişdir. Bu mövzudakı ayələrdən bəziləri belədir:

Yaxşılıq edənlərə daha yaxşısı və artığı var. Onların üzünü nə zülmət, nə də zillət bürüyər. Məhz onlar Cənnət sakinləridirlər və orada əbədi qalacaqlar. (Yunis surəsi, 26)

(Allahdan) çəkinənlərə: “Rəbbiniz nə nazil etmişdir?” deyildikdə, onlar: “Xeyir nazil etmişdir!” dedilər. Bu dünyada gözəl davranışlar göstərənlər üçün gözəllik var; axirət yurdu isə daha xeyirlidir. Təqva sahiblərinin yurdu necə də gözəldir! (Nəhl surəsi, 30)

Bunlar, Allahın möminlərə dünyada və axirətdə olan vədləridir. Həmçinin Allahın vədinin qəti və həqiqət olduğu Quranın bir çox ayəsində: **"Şübhəsiz ki, Allahın vədi haqdır" (Fatir surəsi, 5; Loğman surəsi, 9; Yunis surəsi, 55; Rum surəsi, 60)** sözüylə ifadə edilmişdir.

Məhz bu ən gözəl vədlər dünyada möminin hər an ümidvar ruh halı içində yaşamasını, kədərə və sıxıntıya qapılmamasını təmin edən ən mühüm faktorlardır. Allahın vədi ilə cənnəti ümid edən insan dini bütün şövqü, həyəcanı və həssaslığı ilə yaşayar.

# İslam əxlaqının hakim olacağına ümid etmək fərzdir

**Adnan Oktar**: "Bu zülm yox olacaq" de, "Əfqanistan, Pakistan, Türkiyə, Mərakeş, Tunis, Əlcəzair hamısı xilas olacaq" de. "İslam dünyaya bu əsrdə hakim olacaq Allahın icazəsi ilə" de. Müsəlmanları şövqləndir. Sən bunu niyə deyə bilmirsən? Niyə mütləq "70 il daha bu sistem davam edəcək" deyirsən. "Əlimizdən gələni edib mütləq Allahın icazəsi ilə İslam əxlaqını hakim edəcəyik" de... Bunu deməyin fərzdir, bunu niyə deyə bilmirsən? **İslam əxlaqı dünyaya hakim olacaq deyə ümidvar olması, müsəlmanların fərzidir. İslam əxlaqının dünyaya hakim olması üçün səy göstərməsi fərzdir.** Nur surəsinin 55-ci ayəsində və Quranın bir çox ayəsində İslam əxlaqının dünya hakimiyyətindən bəhs edər. "Türk İslam aləmi birləşəcək" de. "Türklük aləmi birləşəcək, bütün dünyaya Türk İslam birliyi hakim olacaq" de. "Dünyanın lideri olacağıq inşaAllah zülm aradan qalxacaq dünyadan" de. Bunu desə mehdiyyəti də qəbul etməli olacağı üçün, deyə bilmir Çünki desə ki, Mehdi (ə.s) gəlməyəcək, lakin İslam dünyaya hakim olacaq desə, deyəcəklər ki, o zaman, "bunun lideri olacaq mı" deyəcəklər. Bu Türk İslam aləminin lideri olacaq mı, kim bu desələr, məsələ bitəcək təbii ki. Baxın burada sırf inadını davam etdirə bilmək üçün, bunu da deyə bilmir. Baxın fərz olan bu mövzunu deyə bilmir. Yəni bunda nə problem var, elə deyil? Çıx, sinəni gərə-gərə **ümidvar olun, de. İslamın nuru bütün dünyaya hakim olacaq. Nə kommunizm qalacaq, nə faşizm qalacaq, nə darvinizm, nə də materializm, heç nə qalmayacaq. Bu əsrdə Allahın icazəsi ilə İslam əxlaqını hakim edəcəyik, var gücümüzlə səy göstərəcəyik, siz də səy göstərin, hər kəs səy göstərsin, İslam əxlaqını dünyaya hakim edək deyə bilmir. İslam əxlaqı bütün dünyaya hakim olsun deyə bilmir.** Sevgi, sülh, qardaşlıq, dostluq gəlsin deyə bilmir (hörmətli Adnan Oktarın Samsun AKS telekanalına verdiyi müsahibədən, 16 sentyabr 2009-cu il).

**Adnan Oktar**: ..."Ümidvar olun". İndi bu xalq arasında belə bilinir; "yəni əslində elə də qurtuluş yolun yoxdur, lakin ümidvar olmaqda da fayda var", belə deyil. **Ümidvar olmaqda nəzərdə tutulan şey; qəti gerçəkləşəcək olan hadisənin içindəsən gedirsən. Ümidvar budur, ümid hazırdır, sən ümidə doğru gedirsən. İnşaAllah. Budur, yəni "ümidvar" olmaqda risk yoxdur, ikinci ehtimal yoxdur. Məsələn, Türk İslam Birliyində ikinci ehtimal yoxdur.** Məsələn, deyərlər ki; birinin problemi vardır, "indi biz taleyə boyun əyəcəyik" deyər. Sanki mənfi şeylə qarşılaşacaq da, o da dözürmüş kimi, bir üslub. Xeyr, sözü doğrudur, lakin türkcədə istifadəsini ruh halı olaraq bəzi insanlar yanlış bilirlər. **Taleyə təvəkkül etmək, boyun əymək nə deməkdir bilirsənmi? Allahın dediyi ən mükəmməl şey olacaq, ən xoşbəxt olacağın, axirətin, dünya həyatın üçün ən mükəmməl hadisəyə doğru gedirsən deməkdir. Çünki Allah taledə heç vaxt səhv etməz, hadisələrdə heç vaxt səhv etməz.**

**Altuğ Bərkər:** Hocam, Bədiüzzaman həzrətləri də, siz də onu çox sevirsiniz, həmişə dilə gətirirsiniz. O da sizin kimi belə çox ümidvar danışılmasının tərəfdarı idi. Özü də, məsələn, "ümidvar olun, gələcəkdə ən uca və gur səda İslamın sədası olacaq" deyə, o şərtlərdə, yəni dünya müharibələrində.

**Adnan Oktar:** Lakin bax, indi burada yenə bu, bu söz, bu danışıq yanlış anlaşılar. Bu ümidvar olma, ümumiyyətlə, məsələn, xərçəng xəstəsidir insan, ümidvar olun deyərlər. Lakin insan öləcək, elə deyil? Elə bilinər. Bu mənada ümidvarlıq deyil bu. **Bədiüzzaman nə deyir bilirsənmi? "Mən" deyir, "gözümlə gördüm, zamandan kənara çıxdım" deyir. "Məkan və zaman yox oldu" deyir. "Zaman və məkan ölçüsündən kənara çıxdım, hadisələri Allahın istəyi ilə gördüm. Mehdi (ə.s)-ı da gördüm, hadisələri də gördüm. İslam əxlaqı hakim oldu deyir, mən gördüm, gəlib indi danışıram" deyir. "Ümidvar olun" deyir, "olacaq" deyir. Bu mənada deyir. Olmuş şeydən bəhs edir. Ümumiyyətlə bu yanlış tətbiq olunduğu üçün, yəni bunun hərdənbir bir qədər deyilməsində fayda var.** Təbii ki, məsələn, ümidvar olun, eşidən: "tamamilə sevincini itirmə. Tamam, bu iş artıq baş tutmadı, lakin ümidsiz də olma, var gücünlə yenə səy göstər, lakin baş tutmadı artıq təbii ki", kimi, belə başa düşülər. Belə şey yoxdur. Bədiüzzamanın söylədiyi bu deyil. Bədiüzzaman, bilavasitə Mehdi (ə.s) ilə görüşmüş insandır. Yəni üz-üzə görüşmüş insandır Mehdi (ə.s) ilə... Hamısını bilir. Mehdi (ə.s)-ın doğum tarixini də bilir, harada, nə fəaliyyət göstərəcəyini bilir, nə cür fəaliyyət göstərəcəyini bilir, nə vaxta qədər fəaliyyət göstərəcəyini bilir, nə vaxt vəfat edəcəyini bilir. Tələbələrini bilir, nələrlə qarşılaşacağını bilir, hamısını söyləmişdir. Dolayısilə, elə yəni, o mənada ümidvar olun demir Ustad (hörmətli Adnan Oktarın Kocaeli telekanalına verdiyi müsahibədən, 2 fevral 2010-cu il).

# Allahdan "ən xeyirlisini" ümid etmək

"Ümidvar olmaq", istənilən vəziyyət və şərtlər daxilində, hadisələrin hansı istiqamətdə baş verməsindən asılı olmayaraq, Allaha təslim olmaq, heç bir narahatlıq və kədərə qapılmadan hadisələri sevinclə qarşılamaq, hadisələrin gec-tez möminlər üçün ən xeyirli nəticəyə bağlanacağından ən kiçik şübhə duymamaqdır.

Möminlərin ən mühüm xüsusiyyətlərindən biri, daha əvvəl də ifadə etdiyimiz kimi, hər işlərində Allaha yönəlmələri, Allahın yaratdığı taleyə "könüldən" təslim olmalarıdır. Hadisə daha əvvəl heç planlamadıqları şəkildə baş verdikdə isə, çox istədikləri bir şeyə nail ola bilmədiklərində də, çox sevdikləri bir şeyi və ya bir kimsəni itirdiklərində də, bir sözlə, hər şəraitdə Allaha yönələr və hadisələrdəki gözəl və xeyirli istiqamətləri görərlər. Möminlərdən "niyə belə oldu?", "kaş ki, belə olmasaydı" kimi sözləri eşitmək qeyri-mümkündür. Çünki onlar əvvəldən bəri Allahdan razı qalaraq, taleyə təslim olublar.

Mömin dua edərkən Allahdan "ən xeyirlisini" istəyər. Çünki nəyin xeyirli olduğu onun üçün "qeyb"dir, yəni əvvəlcədən bilə bilməz. Lakin Allah ən xeyirli olanın nə olduğunu bilər. Məsələn, Allahın dininə olduqca bağlı olan mömin hidayət tapmasını istədiyi birinin də iman gətirməsini, ibadətlərini yerinə yetirməsini istəyə bilər, bunu ümid edərək Allaha dua edə bilər. İstəyinin çox gözəl və yaxşı niyyətli istək olduğu aydındır. Lakin, "yenə də ən xeyirlisini Rəbbim bilər" deyə düşünər. Çünki bir insan, ancaq Allah istəsə iman gətirə bilər. Buna görə də, sevdiyi bir insan hidayətə gəlmirsə bunda da bir xeyir olduğunu bilər və heç vaxt kədər və ümidsizliyə qapılmaz. Çünki Allah: **"şübhəsiz ki, sən istədiyini hidayətə yönəldə bilməzsən. Lakin Allah istədiyini hidayətə yönəldər. O, hidayətə yönələcəkləri də daha yaxşı tanıyır" (Qəsas surəsi, 56)** ayəsiylə bu mövzuya diqqət çəkmişdir.

Digər bir nümunə üzərində daha düşünək: mömin hər anını digər möminlərlə birlikdə keçirmək istəyər. Çünki möminlər bir-birlərinin vəliləri, ən yaxın dostları, qardaşlarıdır. Hamısı özlərini Allaha və Onun dininə həsr ediblər. Buna görə də bir yerdə olmaqdan böyük həzz alarlar. Lakin həmişə birlikdə olmaya bilərlər. Allahın dininə xidmət etmək məqsədi ilə sevdikləri insanlardan uzaq, fərqli məkanda olmaq məcburiyyətində də qala bilərlər. Yaxud Peyğəmbərimiz (s.ə.v) dövründə yaşanan bir nümunə olaraq, inkar edənlər tərəfindən təzyiq altına alınıb, hicrət etməyə məcbur edilə bilərlər. Möminlərlə birlikdə olmaq, əlbəttə, çox xeyirli hadisədir. Lakin Allah yolunda təzyiq və əziyyətlərə səbir etmək olduqca böyük mükafatlara və xeyirlərə vəsilə ola bilər.

Quranda iman gətirməyənlər tərəfindən sürgün edilmiş, zindanlarda saxlanılmış peyğəmbərlərdən, möminlərdən bəhs edilir. Buna bənzər hadisələrdə möminlər heç vaxt ümidsizliyə qapılmazlar. Özləri üçün bunun böyük xeyir olduğunu bilərlər. Onların məqsədləri hər vəziyyətdə ən gözəl əxlaqı göstərərək əcr toplamaq və Allahı razı etmək

olduğu üçün, olduqları hər məkanı ibadətlərini yerinə yetirə biləcəkləri yer halına gətirər və bundan böyük həzz alarlar. Məhz möminlərin hər şəraitdə göstərdikləri bu təvəkküllü davranışları, həqiqi iman gətirdiklərini göstərər. Ən ağır xəstəliyə tutulsalar və ya şərtlər ən çətin şəraitlərdə olmağı da tələb etsə, həmişə ümidvar, həmişə təvəkküllü, həmişə Allahın yaratdığı hikmətləri və xeyirləri düşünən rəftar göstərərlər.

## Tövbə qapısı həmişə açıqdır

Allah ayələrində, qəflətə qapılıb səhv edən və sonra isə səmimi şəkildə tövbə edib bağışlanma istəyən insanın bağışlanacağını bildirir. Möminlərin yol verdikləri nöqsanın böyüklüyündən asılı olmayaq, səmimi şəkildə etdiklərindən peşmanlıq hiss etdikləri təqdirdə Allahın rəhmətindən ümidlərini kəsməmələri lazım olduğu ayədə belə vurğulanır:

De: "Ey öz əleyhlərinə qarşı həddi aşan qullarım! Allahın rəhmətindən ümidinizi kəsməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayar. Çünki, O, Bağışlayandır, Rəhmlidir". (Zumər surəsi, 53)

Bu, din əxlaqını yaşamağın insanlara bəxş etdiyi ən böyük nemətlərdən və asanlıqlardan biridir. Dində insanlara belə asanlıq verildiyi halda, insanın ümidsizliyə qapılıb etdiyi səhvlərdən sonra özünü bir daha yığışdıra bilməyəcəyini düşünməsi çirkin zənndir. Allahın özünə verdiyi belə asanlığı görməzlikdən gələn insan, öz-özünə zülm etmiş və eyni zamanda da Quran əxlaqının tələbini yerinə yetirməmiş olar.

Quranın insanlara bəxş etdiyi bu böyük asanlıq sayəsində cahil cəmiyyətlərdə yaşanan bir çox Quran əxlaqına uyğun olmayan davranışın da qabağı alınır. Məsələn, cahil cəmiyyətdə səhv edən bir insana lağ etmə, onu alçaltma vərdişi Quran əxlaqının hakim olduğu mühitlərdə heç vaxt yaşanmaz. Əksinə, tövbə etmiş, səhvlərinə görə Allahdan bağışlanma diləmiş və səmimi mömin olaraq Allaha qayıtmış kəslər, Quran əxlaqının yaşandığı cəmiyyətlərdə böyük rahatlıq, sevinc və şövqlə həyatlarını davam etdirər, həmçinin onlara sataşılmaz və ya eyib tutulmaz.

Çünki insanların üstünlüyü ancaq təqva ilə, yəni Allaha və Qurana olan bağlılıqla ölçülə bilər. Cahil cəmiyyətdə kimin nə səhv etdiyi, hansı nöqsana yol verdiyi əhəmiyyətli olduğu halda, Quran əxlaqının yaşandığı mühitdə tövbə etmiş insanların keçmişdəki səhvləri və günahları heç vaxt müzakirə edilməz. Mühüm məsələ insanın Allah qatında bağışlanmasıdır. Allahın bağışlamağı vəd etdiyi bir kimsəni, digər insanların qınamasının, ayıblamasının heç bir etibarlı və qanuni istiqaməti ola bilməz.

Həyatı boyu səhvsiz, günahsız, əskiksiz və qüsursuz olduğunu zənn etməyin ilahlıq iddia etməkdən heç bir fərqi yoxdur (Allahı tənzih edirik). Çünki, insan səhv və günah işləməyə meyilli, aciz varlıqdır. Bunun müqabilində də, Allah bağışlayan və tövbələri qəbul edən olduğunu bildirmişdir. Buna görə də, bilərək və ya bilməyərək, qəflətə qapılaraq, nəfsinə uyaraq işlədiyi səhvlərdən ötrü ümidsizliyə qapılması, şübhəsiz ki, qətiyyən Qurana uyğun olmayan davranış olacaq. Səhv edən möminə düşən səhvindən ötrü ibrət götürmək,

peşman olub doğrusunu görmək, vaxt itirmədən Allaha sığınmaq və bir daha o səhvi təkrarlamamaq üçün səy göstərməkdir.

Əlbəttə ki, mömin səhv və günah işləməməyə, Allahın hökmlərini qorumağa olduqca diqqət göstərər. Lakin buna baxmayaraq, etdiyi səhvlər ola bilər. Səhv və günah işləyib, sonra da tövbə edib Allahdan bağışlanma diləmək mömin xüsusiyyətidir. Allahın "tövbələri qəbul edən" (Təvvab), "Bağışlayan" (Qəffar), "mərhəmət edən" (Rəhman) adları da səhv və günah işləyib peşman olan və Allaha yönələn möminlər üzərində təcəlli edər.

Mömin səhv etdiyi zaman, dərhal tövbə etdiyi kimi bu səhvini tale gözüylə də təfəkkür edər. Hər şeydən əvvəl bu səhvi onun dünyadakı təhsili və Allaha yaxınlaşması üçün onun taleyində yazılmışdır. Bu səhvi tövbə etdikdən sonra özü üçün əcr vəsiləsi olacaq. Çünki səhvlər, bu səhvlər qarşısında bunlardan dərhal imtina edən və Qurana uyğun rəftar göstərərək bunları dərhal düzəldən səmimi möminlərin axirətdəki dərəcələrini yüksəldər, onları yetkinləşdirər, əskiklik və acizliklərini, həmçinin qulluqlarını daha yaxşı dərk etmələrini təmin edər. Mühüm olan isə insanın günahında israr etmədən dərhal peşman olub tövbə etməsidir.

Bütün bunlardan başa düşüləcəyi kimi, səhv edən, günaha işləyən mömin, tövbə edib Allahdan bağışlanma dilədiyi təqdirdə kədər və ümidsizliyə qapılmamalıdır. Çünki ümidsizlik Allahın məmnun olmayacağı davranışdır. Yol verdiyi nöqsana görə Qurana uyğun rəftarı göstərən möminin şövqü, həyəcanı və sevinci yox olmaz, hətta tam əksinə daha da artar.

# Ümid və qorxu arasında olmaq

Ümid və qorxu arasında olmaq, insanın gözəl əxlaqı qazanmasında ən mühüm ünsürlərdən biridir. Ümid, mömininin, din əxlaqını, şövq, səy, həyəcan, sevinc və coşğu ilə yaşamasını təmin edərkən, Allaha qarşı duyduğu qorxu da, onun Allahın hökmlərinə əməl etməkdə olduqca diqqətli olmasına, Allahın istəmədiyi şeylərdən şiddətlə çəkinməsinə, halal və harama çox böyük diqqət göstərməsinə səbəb olar. Ümidvar olmağın verdiyi şövq və coşğu ilə, Allah qorxusunun verdiyi etidal, diqqət, həssaslıq mömininin əxlaqının gözəlləşməsinə və Allaha olan yaxınlığının artmasına vəsilə olar.

Allah Quranda möminlərdən heç bir hadisə qarşısında ümidsizliyə qapılmamalarını, həmişə ümid və güvən içində olmalarını istədiyi kimi, Özünə qarşı sevgi dolu qorxu içində olmalarını da istəmişdir. Belə ki, Allah qorxusu Quranda çox böyük yeri olan və din əxlaqının təməlini meydana gətirən məsələlərdən biridir.

Allahdan lazımınca qorxan insan Allahın əmr etdiklərindən kənara heç vaxt çıxmaz və çox gözəl əxlaqa sahib olar. Allahdan bağışlanmağı, özünə rəhm olunmasını, cənnətə qəbul edilməyi ümid edərkən, eyni zamanda da böyük qorxu içindədir. Çünki heç kəsin cənnətə mütləq gedəcəyinə dair zəmanəti yoxdur. Allahın əzabından heç kəs arxayın ola bilməz. Mömin ancaq əlindən gələni etməklə və Allahın rəhmətini ümid etməkdə məsuldur.

Cənnəti ümid edərkən bir tərəfdən də içi titrəyərək qorxmağın, insanın ibadətlərinə çox müsbət təsiri var. Allah qorxusu güclü olan insan axirəti qazanmaq üçün, olduqca böyük səy göstərəcək, dayanmadan xeyirxahlıq ardınca qaçacaq. Allah qorxusu güclü olmayanlar isə, "necə olsa cənnətə gedərəm", "necə olsa bağışlanaram" deyə düşünə bilir, dolayısilə içi titrəyərək qorxan möminlər qədər böyük sevgi və şövqlə ibadətlərə sarılmırlar.

Allah qorxusu olan insan gördüyü xeyirxah işləri kafi görməz, həmişə Allah rizasının ən çoxunu qazanmaq istəyər. Çünki əlində imkan olduğu halda, məhdud səy göstərmək, nəfsinin arzularına da yer vermək, insanın digər əməllərini də təhlükə altına sala bilər.

Quranda bəhs edildiyi kimi, ümid və qorxu arasındakı ruha sahib olmaq üçün lazım olan, yalnız Allaha qarşı səmimi olmaqdır. Allaha və axirətin varlığına inanan insan normal olaraq, dünyada Allahı razı salmaq və cənnətə gedənlərdən olmaq istəyər. Bu səmimiyyətlə Allahın dininə yönələn insan Onun yaratmasındakı üstünlüyü və mükəmməlliyi hər yerdə görəcək, eləcə də, Allaha qarşı hörmət dolu qorxu duyğusunu və hörmət hissini normal olaraq hiss edəcək. Allah qorxusu ilə Qurana tabe olmaqda olduqca həssas olacaq, Allahın ayələrinə əməl etməyin verdiyi rahatlıq və güvən hissiylə də cənnəti ümid edəcək. Göründüyü kimi, səmimi mömində ümid və qorxu normal tarazlıq halındadır.

Bu iki xüsusiyyətin hər mömində olmasını Allah xüsusilə bildirib. Hər ikisi də, mömin olmağın tələblərindəndir. İnsanın hər ikisini də qəlbində güclü şəkildə hiss etməsi və yaşaması, onu doğru yola yönəldəcək və ona dünya və axirətdə xoşbəxtlik gətirəcək.

Allah Özünə yönələn və dua edən möminlərdən dualarında da ümid və qorxu içində olmalarını istəmişdir. Mövzu ilə əlaqədar ayələr belədir:

Yer üzü islah olunduqdan sonra, orada fəsad törətməyin. Allaha qorxu və ümidlə dua edin. Doğrusu, Allahın mərhəməti yaxşılıq edənlərə çox yaxındır. (Əraf surəsi, 56)

Onların yanları yataqlarından uzaqlaşar. Qorxu və ümid içində öz Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən infaq edərlər. (Səcdə surəsi, 16)

Allahın bu tövsiyəsi ilə möminlər həm cənnətə qovuşa bilmə ümidi ilə, həm də eyni zamanda çox güclü Allah qorxusu ilə dua edərlər. Bu sərhədi qorumaları onları Allaha qarşı olduqca itaətkar edər.

# Allahın Quranda iman gətirənlərə verdiyi vədlər

## Allahın möminlərə dünyada verdiyi vədlər

### Allah möminlərin tövbələrini qəbul edər

Kim tövbə edərək saleh əməllər işləsə, həqiqətən o, tövbəsi (və özü) qəbul edilmiş halda Allaha qayıdar. (Furqan surəsi, 71)

Şeytan sizi yoxsulluqla qorxudur və çirkin işlər görməyi əmr edir. Allah isə sizə bağışlanma və bol ehsan (lütf) vəd edir. Allah (mərhəməti ilə) genişdir, biləndir! (Bəqərə surəsi, 268)

Buna görə ki: Allah, münafiq kişiləri və münafiq qadınları, müşrik kişiləri və müşrik qadınlara əzab verəcək; mömin kişilərin və mömin qadınların tövbələrini qəbul edəcək. Allah çox bağışlayandır, çox rəhm edəndir. (Əhzab surəsi, 73)

Allah, iman gətirib saleh işlər görənlərə vəd etmişdir ki, onlar üçün bağışlanma və böyük mükafat var. (Maidə surəsi, 9)

### Allah möminlərin pis əməllərini yaxşı əməllərə çevirər

Lakin tövbə edən, iman gətirən və saleh işlər görənlərdən başqa! Məhz Allah onların günah əməllərini yaxşı əməllərə çevirər. Allah çox bağışlayandır, çox rəhm edəndir. (Furqan surəsi, 70)

İman gətirib saleh əməllər işləyən və Məhəmmədə endirilən (Qurana) (belə ki, o Rəbbindən gələn haqqdır) iman gətirənlərin (Allah), pis əməllərini üstünü örtüb bağışlamış, vəziyyətlərini düzəldib islah etmişdir. (Məhəmməd surəsi, 2)

Məhz bunlar; əməllərinin ən yaxşısını qəbul edərik, günahlarından keçərik (bunlar) cənnət əhli içərisindədirlər. (Bu,) Onlara verilmiş gerçək vəddir. (Əhqaf surəsi, 16)

## Allah dinini üstün edəcək, batili yox edəcək

Allah sizlərdən iman gətirib saleh işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri “güc və hakimiyyət sahibi” etdiyi kimi, onları da yer üzündə “güc və hakimiyyət sahibi” edəcək, özləri üçün seçib bəyəndiyi dinlərini özlərində hakim edib möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar yalnız Mənə ibadət edər və heç nəyi Mənə şərik qoşmazlar. Bundan sonra inkar edənlər – məhz onlar fasiqdirlər. (Nur surəsi, 55)

And olsun ki, Allah, sənə o ağacın altında beyət edərkən möminlərdən razı oldu, qəlblərində olanı bildi, onlara “güvən duyğusu və hüzur” endirdi və onlara yaxın bir zəfəri savab (qarşılıq) kimi verdi. (Fəth surəsi, 18)

De: "Haqq gəldi, batil yox oldu. Çünki batil yox olmağa məhkumdur". (İsra surəsi, 81)

Məhz (yer üzünün hakimiyyətinə və axirətin nemətlərinə) bunlar varis olacaq. (Muminun surəsi, 10)

## Allah çətin vəziyyətlərdə möminləri Mələklər ilə dəstəkləyər

Bəli, əgər səbir etsəniz, çəkinsəniz və onlar da anən üstünüzə hücum çəksələr, Rəbbiniz sizə nişanlanmış beş min mələklə yardım edər. (Ali İmran surəsi, 125)

Şübhəsiz ki; "Rəbbimiz Allahdır!" deyib sonra dosdoğru yol tutanlar (var ha); onların üzərinə mələklər enər və belə deyər: "qorxmayın və kədərlənməyin, sizə vəd olunan Cənnətlə sevinin". (Fussilət surəsi, 30)

# Allah Öz dininə kömək edənlərə kömək edər

Onları hidayətə yönəldəcək və vəziyyətlərini düzəldib islah edəcək. Həmçinin onları, özlərinə təsvir edib tanıtdığı cənnətə daxil edəcək. Ey iman gətirənlər! Əgər siz Allaha (Allah üçün İslama və müsəlmanlara) kömək etsəniz, O da sizə kömək edər və sizin ayaqlarınızı möhkəmlədər. (Məhəmməd surəsi, 5-7)

O kəslər ki, yanlarındakı Tövrat və İncildə (gələcəyi) yazılmış olduğunu görəcəkləri, ümmi xəbər gətirici (Nəbi) olan elçiyə (Rəsul) tabe olarlar. O onlara yaxşı əməlləri buyurur, pis əməlləri isə qadağan edir, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edir. Onların ağır yüklərini və üzərlərindəki zəncirləri endirir. Ona iman gətirən, onu dəstəkləyən, onu müdafiə edən və onunla göndərilmiş nurun ardınca gedənlər isə nicat tapanlardır". (Əraf surəsi, 157)

Onlar ancaq "Rəbbimiz Allahdır" dediklərinə görə haqsız yerə yurdlarından çıxarıldılar. Əgər Allah insanların bəzilərini, digərləri ilə dəf etməsəydi (məğlubiyyətə uğratmasaydı), monastırlar, kilsələr, sinaqoqlar və içərisində Allahın adı çox zikr olunan məscidlər mütləq dağılıb gedərdi. Allah Özünə (dininə) yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah Güclüdür, Əzizdir. (Həcc surəsi, 40)

Biz səndən əvvəl onların qövmünə elçilər göndərmişdik. Elçilər onlara açıq-aydın dəlillər gətirmişdilər. Beləliklə, Biz də günahkarlardan intiqam aldıq. İman gətirənlərə yardım etməksə, Bizim borcumuzdur. (Rum surəsi, 47)

Rum (orduları) məğlubiyyətə uğradı. Yaxın bir yerdə. Lakin onlar öz məğlubiyyətlərindən sonra qələbə çalacaqlar; bir neçə il ərzində. Bundan əvvəl də, sonra da əmr Allahındır. O gün möminlər sevinəcəklər; Allahın köməyi ilə. O, istədiyinə kömək edər. O, Güclü və Üstündür, Rəhmlidir. Bu Allahın vədidir. Allah Öz vədinə xilaf çıxmaz. Lakin insanların əksəriyyəti bilməz. (Rum surəsi, 2-6)

## Allah dualara razılıq edər

Zün-Nunu (Yunis) da yada sal! Bir zaman o qəzəbli halda getmiş və bundan ötrü onu çətinliyə salmayacağımızı güman etmişdi. (Balığın qarnındakı) zülmətlər içində: "Səndən başqa İlah yoxdur! Sən Ucasan, həqiqətən mən zalımlardan oldum" deyə səsləndi. Bundan sonra onun duasını qəbul etdik və onu qəm-qüssədən qurtardıq. Məhz Biz iman gətirənləri belə xilas edərik! (Ənbiya surəsi, 87-88)

Andolsun Nuh Bizə (dua edib) səslənmişdi ki, nə gözəl cavab vermişdik. Onu və ailəsini o böyük təəssürdən qurtardıq. (Saffat surəsi, 75-76)

Necə ki, Rəbbi onlara (dualarını qəbul edərək) belə cavab verdi: "Şübhəsiz ki, Mən, sizlərdən kişi və ya qadın olmasından asılı olmayaraq, heç bir kəsin əməyini puç etmərəm. Sizin bəziniz bəzinizdəndir. Məhz, hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda işgəncəyə görənlərin, vuruşub öldürülənlərin, mütləq günah əməllərinin üstünü örtəcək və onları altlarından çaylar axan cənnətlərə daxil edəcəyəm. Bu, Allah tərəfindən bir qarşılıqdır (mükafatdır). Gözəl qarşılıq (mükafat) məhz Allahın yanındadır". (Ali İmran surəsi, 195)

Beləliklə onun duasına cavab verdik. Üstündən o dərdi götürdük. Ona qatımızdan bir mərhəmət və ibadət edənlərə zikr olsun deyə, ailəsini və onlarla birlikdə bir mislini daha verdik. (Ənbiya surəsi, 84)

## Allah möminlər üçün asanlıq istəyər

Lakin kim versə və qorxub çəkinsə, həmçinin ən gözəl olanı təsdiqləsə, Biz də onu asan olan üçün müvəffəq edəcəyik. (Leyl surəsi, 5-7)

...Kim Allahdan qorxub çəkinsə, (Allah) ona, işində asanlıq göstərər. (Talaq surəsi, 4)

...Allah heç bir nəfsin üzərinə ona verdiyindən artıq yük qoymaz. Allah bir çətinlikdən sonra asanlıq verəcək. (Talaq surəsi, 7)

Deməli, həqiqətən çətinlikdən sonra asanlıq var. Həqiqətən çətinlikdən sonra asanlıq var. (İnşirah surəsi, 5-6)

...Allah sizin üçün çətinlik istəməz, asanlıq istəyər. (Bu asanlıq) sayı tamamlamağınız və sizi doğru yola (hidayətə) yönəltdiyinə görə Onu böyük bilməyiniz üçündür. Ümid olunur ki, şükür edəsiniz. (Bəqərə surəsi, 185)

## Allah mömin qullarına rəhm edər

Sizi zülmətlərdən nura çıxartmaq üçün sizə rəhm edən Odur. Onun mələkləri də (sizin üçün dua edirlər). O möminlərə qarşı çox Rəhmlidir. (Əhzab surəsi, 43)

Mömin kişilərlə mömin qadınlar bir-birinin vəlisidirlər. Yaxşı əməlləri buyurar, pis əməllərə qadağa qoyar, dosdoğru namaz qılar, zəkat verər, Allaha və Onun Elçisinə itaət edərlər. Məhz Allah bunlara rəhm edəcək. Şübhəsiz ki, Allah üstün və güclüdür, hökm və hikmət sahibidir. (Tövbə surəsi, 71)

## Allahın möminlərə axirətdə verdiyi vədlər

## Allah səbr edənlərə qarşılığını ən gözəl şəkildə verəcək

Bunlar, sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Bundan əvvəl bunları nə sən, nə də sənin ümmətin bilirdi. O zaman səbr et! Şübhəsiz ki, (gözəl) nəticə təqva sahiblərinindir. (Hud surəsi, 49)

Səbr et! Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz. (Hud surəsi, 115)

Və onları səbr etdiklərinə görə Cənnət və ipəklə mükafatlandırmışdır. (İnsan surəsi, 12)

“Səbr etdiyinizə görə sizə salam olsun. (Dünya) yurdun(un) sonu necə də gözəldir”. (Rad surəsi, 24)

Məhz onlar, səbr etdiklərinə görə (cənnətin ən gözəl yerində) otaqlarla mükafatlanar və orda sağlamlıq arzusu və salamla qarşılanarlar. Orda əbədi qalacaqlar; o, necə də gözəl qərargah və necə də gözəl məskəndir. (Furqan surəsi, 75-76)

De: "Ey iman gətirən bəndələrim, Rəbbinizdən qorxun. Bu dünyada yaxşılıq edənlər üçün yaxşılıq var. Allahın Ərzin genişdir. Ancaq səbr edənlərə mükafatları hesabsız ödənilər". (Zumər surəsi, 10)

## Allah saleh əməllər işləyənlərə Ədn cənnətlərində gözəl məskənlər vəd etmişdir

Allah mömin kişilərə və mömin qadınlara içində əbədi qalmaq üçün, altından çaylar axan cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəd etmişdir. Allahdan olan razılıq isə ən böyükdür. Məhz, böyük qurtuluş və xoşbəxtlik budur. (Tövbə surəsi, 72)

Ədn cənnətləri; qapılar onlar üçün açılmışdır. İçində yaslanıblar; orada bir çox meyvə və şərab istəyirlər. Həmçinin onların yanında gözlərini yalnız ərlərinə dikmiş həmyaşıd qadınlar var. Məhz haqq-hesab günü sizə vəd edilən budur. Şübhəsiz ki, bu, Bizim ruzimizdir, o tükənməzdir. (Sad surəsi, 50-54)

"İçində əbədi qalacaqları, altından çaylar axan Ədn cənnətləri də (onlarındır). Həmçinin bu, təmizlənmiş kimsənin qarşılığıdır". (Taha surəsi, 76)

Ədn cənnətləri (onlarındır); oraya girəcəklər, orada qızıldan bilərziklərlə və incilərlə bəzənəcəklər. Həmçinin orada onların paltarları ipək(dən) olacaq. (Fatir surəsi, 33)

Lakin Rəbbindən qorxanlar isə; onlar üçün uca köşklər var, onların üstündə də uca köşklər inşa edilmişdir. Onların altında çaylar axır. (Bu,) Allahın vədidir. Allah vədinə xilaf çıxmaz. (Zumər surəsi, 20)

## Allah möminlərə sonsuz nemətlərlə dolu cənnət həyatı vəd etmişdir

Ədn cənnətləri (onlarındır) ki, Rəhman (olan Allah, onu) Öz qullarına qeybdən vəd etmişdir. Şübhəsiz ki, Onun vədi yerinə yetəcək. Orada “boş söz” eşitməzlər; yalnız salam (sözünü eşidərlər). Səhər-axşam, onların ruziləri oradadır. O cənnət; Biz, bəndələrimizdən təqva sahibi olanları (ona) varis edəcəyik. (Məryəm surəsi, 61-63)

De: “Bu daha yaxşıdır, yoxsa təqva sahiblərinə vəd edilən əbədi cənnət?” Belə ki, bu onlar üçün mükafat və son dayanacaqdır. İçində əbədi qalanlar olaraq orada istədikləri hər şey onlarındır. Bu, Rəbbinin Öz öhdəsinə götürdüyü, arzu olunan vəddir. (Furqan surəsi, 15-16)

(Ancaq) Həqiqətən, iman gətirib saleh əməllər işləyənlər isə; onlar üçün nemətlərlə dolu cənnətlər var. Onlar orada əbədi qalacaqlar. Allahın vədi haqdır. O, üstün və güclü olandır, hökm və hikmət sahibidir. (Loğman surəsi, 8-9)

Təqva sahiblərinə vəd olunan Cənnətin vəsfi belədir; orada xarab olmayan sudan çaylar, dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan çaylar və süzülmüş baldan çaylar var. Orada onları hər cür meyvə və Rəbbi tərəfindən bağışlanma gözləyir. Heç (belə mükafat alan kimsə) od içində əbədi qalan və bağırsaqlarını parça-parça edən qaynar su içirdiləcək kimsələr kimi ola bilərmi? (Məhəmməd surəsi, 15)

Lakin Rəbbindən qorxub çəkinənlər; onlar üçün Allah qatında (ziyafət olaraq) altından çaylar axan (içində əbədi qalacaqları) cənnətlər var. Yaxşılıq edənlər üçün, Allah qatında olanlar daha xeyirlidir. (Ali İmran surəsi, 198)

Orada taxtlara yaslanacaqlar. Orada nə (yandıran) günəş, nə də donduran soyuq görəcəklər. (Meyvələrin) kölgələri onlara çox yaxındır və dərilmələri xeyli asanlaşdırılıb. Ətraflarında gümüşdən büllur qablar, badələr dolandırılacaq. Gümüşdən büllur qablar ki, onları müəyyən ölçü əsasında düzəldiblər. Orada onlara bir qədəh içirdiləcək ki, qatışığı zəncəfildir. Bir çeşmə ki, orada "səlsəbil" adlandırılar. Ətraflarında əbədi (gənc və gümrah olan) yeniyetmələr dolanar; sən onları gördüyün zaman ətrafa saçılmış mirvari dənələri hesab edərsən. Hara baxsan, nemət və böyük mülk görərsən. Onların üzərində ipək və atlazdan toxunmuş yaşıl paltarlar var. Gümüş bilərziklərlə bəzəniblər. Rəbbi onlara tərtəmiz şərab içirtmişdir. Şübhəsiz ki, bu, sizin üçün mükafatdır. Sizin səy göstərməyiniz təşəkkürə layiqdir. (İnsan surəsi, 13-22)

İman gətirib saleh əməllər işləyənlər, Biz onları altından çaylar axan, içində əbədi qalacaqları cənnətlərə daxil edəcəyik. Bu, Allahın gerçək vədidir. Sözündə Allahdan daha doğruçu kim ola bilər? (Nisa surəsi, 122)

Mülk, o gün yalnız Allahındır. O, onların arasında hökm verəcək. Artıq iman gətirib saleh əməllər işləyənlər; onlar nemətlərlə dolu cənnətlərdədirlər. (Həcc surəsi, 56)

Şübhəsiz ki, iman gətirib saleh əməllər işləyənlərə gəldikdə; onlar üçün altından çaylar axan cənnətlər var. Məhz “böyük qurtuluş və xoşbəxtlik” budur. (Büruc surəsi, 11)

O gün, elə üzlər də vardır ki, nemətlər arasında (əngin xoşbəxtlik içindədirlər). Göstərdiyi səydən ötrü məmnundur. (Ğaşiyə surəsi, 8-9)

Lakin tövbə edən, iman gətirən və saleh əməllər işləyənlər (istisnadır); məhz bunlar cənnətə girəcək və heç bir mövzuda zülmə məruz qalmayacaqlar. (Məryəm surəsi, 60)

Təqva sahiblərinə vəd edilmiş Cənnətin vəsfi belədir; onun altından çaylar axar və onun yeməkləri də, kölgəsi də daimidir. Bu qorxub çəkinənlərin (xoşbəxt) aqibətidir, inkar edənlərin aqibəti isə Oddur. (Rad surəsi, 35)

Bizim qatımızda sizi (Bizə) yaxınlaşdıra biləcək nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Lakin iman gətirib saleh əməllər işləyənlər istisnadır. Məhz onlar; onlar üçün

etdikləri əməllərə qarşılıq olaraq qat-qat mükafat var və onlar uca köşklərində əmin-amanlıq içindədirlər. (Səba surəsi, 37)

Lakin tövbə edənlər, islah edənlər, Allahdan möhkəm yapışanlar və öz dinlərini şərik qoşmadan Allaha məxsus edənlər istisnadır; məhz bunlar möminlərlə birlikdədirlər. Allah möminlərə böyük mükafat verəcək. (Nisa surəsi, 146)

## Allah saleh əməllərin qarşılığını tam verəcək

Kişi və ya qadın olmasından asılı olmayaraq, mömin olaraq saleh əməl işləyənə, Biz mütləq gözəl həyat bəxş edəcək və ona etdiyi əməllərin qarşılığını, etdiyi əməllərin ən gözəliylə mütləq verəcəyik. (Nəhl surəsi, 97)

Buna görə də, iman gətirib saleh əməllər işləyənlər; bunlar üçün bağışlanma və üstün ruzi var. (Həcc surəsi, 50)

Bütün insan qruplarını öz imamlarıyla birlikdə çağıracağımız gün, artıq kimin kitabı sağ əlinə verilsə, o öz kitabını oxuyacaq və xurma çəyirdəyindəki lif qədər haqsızlığa məruz qalmayacaq. (İsra surəsi, 71)

Şübhəsiz ki, iman gətirib saleh əməllər işləyənlər isə; Biz həqiqətən ən gözəl davranışı göstərən kimsənin mükafatını puç etmərik. (Kəhf surəsi, 30)

Həqiqətən, Allah zərrə qədər haqsızlıq etməz. (Bu qədər) yaxşı əməl olsa, onu qat-qat artırar və öz tərəfindən də böyük mükafat verər. (Nisa surəsi, 40)

Artıq iman gətirib saleh əməllər işləyənlərə gəldikdə; Rəbbi onları Öz mərhəmətinə qovuşdurar. Məhz açıq-aydın olan "böyük xoşbəxtlik və qurtuluş" budur. (Casiyə surəsi, 30)

Artıq kim mömin olaraq saleh əməllər işləsə, onun səyi üçün (qarşılıq olaraq) küfran (nankorluq) yoxdur. Şübhəsiz ki, Biz, onu yazanlarıq. (Ənbiya surəsi, 94)

Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, qəlbən (Allaha) itaət edən kişilər və qəlbən (Allaha) itaət edən qadınlar, sadiq kişilər və sadiq qadınlar, səbirli kişilər və səbirli qadınlar, hörmətlə (Allahdan) qorxan kişilər və hörmətlə (Allahdan) qorxan qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, isмətlərini qoruyan kişilər və (ismətlərini) qoruyan qadınlar, Allahı çox-çox zikr edən kişilər və Allahı çox-çox zikr edən qadınlar; (məhz) bunlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır. (Əhzab surəsi, 35)

## Mallarını infaq edənlərin qarşılığını Allah artıraraq verəcək

De: "Həqiqətən, mənim Rəbbim istədiyi qullarının ruzisini artırar və azaldar. Hər nə infaq etsəniz, O (Allah), yerinə başqasını verər. O, ruzi verənlərin ən yaxşısıdır". (Səba surəsi, 39)

Həqiqətən Allahın Kitabını oxuyanlar, namazı dosdoğru qılanlar və özlərinə verdiyimiz ruzilərdən gizli və aşkar infaq edənlər; qətiyyən səmərəsiz olmayacaq bir ticarətə ümid edə bilərlər. (Fatir surəsi, 29)

Onlara qarşı bacardığınız qədər qüvvə və kök atlar hazırlayın. Belə ki, bununla Allahın düşmənini, öz düşməninizi və bunlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi digər (düşmənləri) qorxudasınız. Allah yolunda hər nə infaq etsəniz, sizə "tam ödənilər" və sizə haqsızlıq edilməz. (Ənfal surəsi, 60)

Kiçik-böyük infaq etdikləri hər nəfəqə və (Allah yolunda) aşdıqları hər vadi, mütləq Allahın etdiklərinin daha gözəliylə onlara qarşılığını verməsi üçün, (bunlar) onlar adına yazılmışdır. (Tövbə surəsi, 121)

Heç bir kəsə minnət qoymadan, əziyyət vermədən mallarını Allah yolunda sərf edənlərin Rəbbi yanında mükafatları vardır. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər. (Bəqərə surəsi, 262)

Mallarını Allah yolunda infaq edənlər, sonra infaq etdikləri şeyin ardınca minnət qoymayan və əziyyət verməyənlərin mükafatları onların Rəbbi qatındadır, onlara qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 274)

## Allah yolunda səy göstərənlər qurtulanlardan olacaq

Lakin Rəsul və onunla birlikdə olan möminlər malları və canları ilə cihad etdilər (səy göstərdilər); məhz bütün xeyirlər onlarındır və qurtulanlar onlardır. Allah onlar üçün əbədi qalacaqları, altından çaylar axan cənnətlər hazırladı. Məhz böyük "qurtuluş və xoşbəxtlik" budur. (Tövbə surəsi, 88-89)

Doğrudan da, Allah möminlərdən (qarşılığında onlara mütləq cənnəti vermək üçün) canlarını və mallarını satın almışdır. Onlar Allah yolunda vuruşarlar, öldürər və öldürülərlər. (Bu,) Allahın Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü gerçək bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirə biləcək kimdir? Elə isə etdiyiniz bu sövdələşmədən ötrü sevinin və bir-birinizi müjdələyin. Məhz "böyük qurtuluş və xoşbəxtlik" budur. (Tövbə surəsi, 111)

## Allah şükür edənləri mükafatlandıracaq

Allah icazə vermədikcə heç bir nəfsə ölüm yoxdur. Bu, vaxtı bildirilmiş yazıdır. Kim dünyanın yararını (mükafatını) istəsə ona ondan verərik, kim axirət mükafatını istəsə, ona da ondan verərik. Biz şükür edənləri çox yaxında mükafatlandıracağıq. (Ali İmran surəsi, 145)

Həqiqətən, Səfa və Mərvə Allahın nişanələrindəndir. Beləliklə kim evi (Kəbəni) həcc və ya ümrə niyyəti ilə ziyarət edərsə, bunları təvaf etməsində onun üçün heç bir problem yoxdur. Kim də qəlbən bir yaxşılıq etsə (qarşılığını alar). Şübhəsiz ki, Allah şükrün əvəzini verəndir, Biləndir. (Bəqərə surəsi, 158)

## Allah yolunda ölənlərə böyük mükafat var

Elə isə dünya həyatını atıb axirəti satın alanlar Allah yolunda vuruşsunlar. Kim Allah yolunda vuruşarkən, öldürülər və ya qalib gələrsə, ona böyük mükafat verəcəyik. (Nisa surəsi, 74)

And olsun, əgər Allah yolunda öldürülsəniz və ya ölsəniz, Allahın bağışlaması və rəhməti, onların yığdıqları bütün şeylərdən daha xeyirlidir. (Ali İmran surəsi, 157)

Allah yolunda öldürülənləri əsla “ölü” hesab etməyin. Xeyr, onlar öz Rəbbi qatında diridirlər və onlara ruzi verilir. (Ali İmran surəsi, 169)

Allah yolunda hicrət edib öldürülən və ya ölənlərə gəldikdə, Allah mütləq onlara gözəl ruzi bəxş edəcək. Şübhəsiz ki, Allah ruzi verənlərin ən yaxşısıdır. Onları, həqiqətən məmnun qalacaqları bir yerə daxil edəcək. Şübhəsiz ki, Allah Biləndir, Həlimdir. (Həcc surəsi, 58-59)

## Möminlər qiyamət günündə və axirətdə heç bir çətinliklə qarşılaşmayacaqlar

Artıq kimin kitabı sağ tərəfindən verilsə, o, yüngül sorğu-suala çəkiləcək və yaxınlarına sevinc içində qayıdacaq. (İnşiqaq surəsi, 7-9)

Artıq bu gün, iman gətirənlər kafirlərə gülürlər. Taxtlar üzərində seyr etmək surətiylə (Mutaffifin surəsi, 34-35)

Lakin iman gətirib saleh əməllər işləyənlər istisnadır; onlar üçün tükənməz əcr (mükafat) var. (İnşiqaq surəsi, 25)

Ey iman gətirənlər, Allaha qəti şəkildə tövbə edin. Ola bilsin ki, Allah sizin günahlarınızın üstünü örtər və sizi altından çaylar axan cənnətlərə daxil edər. O gün Allah Peyğəmbəri və onunla birlikdə iman gətirənləri alçaltmayacaq. Nurları, önlərində və sağ tərəflərində qaçıb parıldayar. Onlar belə deyərlər: "Ey Rəbbimiz nurumuzu tamamla və bizi bağışla. Şübhəsiz ki, Sən hər şeyə qadirsən". (Təhrim surəsi, 8)

Qiyamət saatının gələcəyi gün (möminlərlə kafirlər bir-birindən) ayrılacaqlar. Beləliklə iman gətirib saleh əməllər işləyənlər; artıq onlar “cənnət bağçasında” “sevinc içində qonaqlanarlar”. (Rum surəsi, 14-15)

Lakin özlərinə yaxşılıq etdiyimiz insanlar, məhz, onlar ondan uzaqlaşdırılıblar. Onun xışıltısını belə eşitməzlər. Onlar nəfslərinin arzuladığı (saysız nemət) içində əbədi qalacaqlar. Onları, o ən böyük qorxu kədərləndirməz. "Məhz bu sizin gününüzdür, sizə vəd edilmişdi" deyə mələklər onları qarşılayacaqlar. (Ənbiya surəsi, 101-103)

## Allah, Özünə və elçisinə itaət edənlərə cənnəti vəd etmişdir

Bunlar Allahın hüdudlarıdır. Kim Allaha və Onun Elçisinə itaət etsə, Allah onu altından çaylar axan, içində əbədi qalacağı cənnətlərə daxil edər. Məhz böyük qurtuluş və xoşbəxtlik budur. (Nisa Surəsi, 13)

Kim Allaha və Rəsula itaət etsə, məhz onlar Allahın özlərinə nemət verdiyi peyğəmbərlər, doğrular (və təsdiqləyənlər), şəhidlər və salehlərlə birlikdədirlər. Onlar necə də yaxşı yoldaşdırlar? (Nisa surəsi, 69)

Lakin sizdən kim Allaha və Rəsuluna qəlbən itaət edərək saleh əməl işləsə, onun mükafatını ikiqat verərik. Həmçinin Biz onun üçün üstün ruzi hazırlamışıq. (Əhzab surəsi, 31)

Belə ki, O (Allah) əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Elçisinə itaət edərsə, artıq o qurtulmuşdur. (Əhzab surəsi, 71)

Yaralandıqdan sonra Allahın və Elçisinin dəvətini qəbul edənlər, aralarından yaxşılıq edənlər və çəkinənlər üçün böyük mükafat var. (Ali İmran surəsi, 172)

# İnkarçıların ümidsiz halları

Ümidsizlik, din əxlaqını yaşamayan insanlarda tez-tez rast gəlinən ruh xəstəliyidir. Bu, insanların Allahın varlığını qəbul etməmələrindən və ya Allahı lazımi qədər tanımamalarından irəli gəlir. İmandan və dolayısilə Quran məlumatından məhrum olan bu insanlar ətraflarında baş verən bütün hadisələrin təsadüflər nəticəsində meydana gəldiyini düşünürlər. Allahın hər şeyi, Özünün müəyyənləşdirdiyi tale çərçivəsində yaratdığını və hər an idarəsi altında saxladığını dərk edə bilməzlər.

Buna görə də, üzləşdikləri istənilən mənfi hadisə özləri üçün kədər və ümidsizlik vəsiləsi olar. Hətta pis bir hadisəyə gərək qalmadan, sırf özlərinin qurduqları xülyalar, vəsvəsələr və narahatlıqlar belə onları böyük ümidsizliyə salmağa kifayət edər.

Bu ruh halındakı insan hər mövzuda, hər hadisədə pisə yozacaq, mənfi istiqamət tapa bilər. Hər şeydən pessimizmə və ümidsizliyə sürüklənəcək nəticələr çıxarda bilər. Çünki meyar qəbul edəcəyi heç bir yol göstərəni yoxdur. Həyat fəlsəfəsini və hadisələrə baxışını təyin edən şeylərin təsadüf, şans kimi anlayışlar olduğunu düşünər. Halbuki bu anlayışların ona ümid və güvən verəcək heç bir gücü yoxdur. Tam əksinə, bu anlayışlara inanması və həyatını bunların üzərində qurması, onun hər cür sıxıntını və əzabı yaşamasına səbəb olar.

Belə olması da təbiidir. Çünki Allahı tanımamaqla, Onun insanlara rəhbər, rəhmət və müjdə kimi göndərdiyi Quranı rəhbər tutmamaqla öz-özünə zülm etmiş, çəkdiyi bütün çətinliklərə özü səbəb olmuşdur. Özünü və bütün varlıqları əhatə edən İlahi taledən xəbərsizdir. Buna görə də, Allahın istəyi və məlumatı ilə baş verən hər şeyi nəzarətsiz hadisələr zənciri hesab edər. Bir sözlə, olduqca kor və cahil olması, ona həyatı boyu bir növ cəhənnəm əzabı yaşadar.

İnkar edənlər üçün vəziyyət belə ikən, özünü müsəlman kimi təqdim edən bəzi insanlar da eyni ruh halını yaşayarlar. Müsəlman olmalarına baxmayaraq, Quran əxlaqını yaşamadıqları üçün hadisələrə yanaşma tərzləri və reaksiyaları da inkar edənlərdən heç də fərqlənmir. Bütün hadisələri səbəblər zəncirinin, təbiət qanunlarının, ictimai inkişafların nəticəsi kimi qiymətləndirər, bütün bu hadisələri Allahın yaratdığını düşünməz və bunların arxasındakı İlahi hikməti və məqsədi görə bilməzlər.

Halbuki Qurani baxış insana tamamilə fərqli xarakter qazandırar. Hər şeyə bu baxışla yaxınlaşan bir insan mömin olduğu üçün, hər hadisənin özü və digər möminlər üçün də xeyirli olduğunu bilər. Çünki Allah möminlərin dostudur və onlar üçün dünyada və axirətdə ən xeyirli olanı istəyir və yaradır. Əgər mənfi kimi görünən bir vəziyyətlə qarşılaşsa, bunu pis şansa, uğursuzluğa, işlərin tərs getməsiylə əlaqələndirməz. "Şər" kimi görünən bir hadisədə;

**“ola bilsin ki, xoşlamadığınız bir şey sizin üçün xeyirlidir”** (Bəqərə surəsi, 216) ayəsində bildirildiyi kimi Allahın çox böyük xeyirlər yaratmış ola biləcəyini düşünər.

Hər şeyin Allahdan gəldiyini və Onun istəyi ilə baş verdiyini dərk edərək, heç bir şərtdə və vəziyyətdə kədərə, pessimizmə və ümidsizliyə qapılmaz. Bu dünyada hər şeyin imtahan vəsiləsi olduğunu düşünərək qarşısına çıxan hadisələrdə Quranda bildirilən ən gözəl əxlaqı, ən gözəl davranış formasını göstərər.

## Allahın rəhmətindən yalnız inkarçılar ümid kəsər

İnsanlar çətin hadisələrlə qarşılaşdıqları zaman göstərdikləri rəftara görə iki qrupa ayrılarlar. Bunlardan birinci qrup Allahın varlığını inkar edən və dünya həyatının işlərinə aludə olan insanlardır. Hər hansı bir çətinlik, sıxıntı, fiziki və ya mənəvi təzyiqlə qarşılaşdıqları zaman bir anda təcavüzkarlaşıb, gözlənilməz üsyankar rəftarlar göstərərlər. Çətinliklər iman gətirməyənlərin böyük ümidsizliyə qapılmalarına səbəb olar. 1) Bu ümidsizlik bütün həyatlarına mane olar, şövq və həyəcanlarını yox edər, çox böyük dəhşət və qorxu meydana gətirər. Hər çətinliyi bəla kimi görər, buna görə də, təmkinli davrana bilməzlər.

Allahın rəhmətindən ümid kəsənlər, Allaha və axirətə inanmayan insanlardır. Öz rəhmətindən təkcə inkarçıların ümid kəsdiyini Allah ayəsində bu cür ifadə edir:

Allahın ayələrini və Ona qovuşmağı “inkar edənlər”; məhz onlar, Mənim rəhmətimdən ümid kəsənlərdir; və məhz onlar, ağrılı əzab onlarındır. (Ənkəbut surəsi, 23)

Quranda təriflənən peyğəmbərlərdən biri olan hz. Yaqub (ə.s) da öz oğullarına Allaha qarşı ümidvar olmağı nəsihət etmişdir. Hz. Yaqub (ə.s)-ın oğullarına Allahın rəhmətindən ümid kəsənlərin yalnız inkarçılar olduğunu söylədiyini bildirən ayədə belə bildirilir:

Oğullarım! Gedin Yusifdən və qardaşından (həssas araşdırma ilə) bir xəbər gətirin və Allahın mərhəmətindən ümidinizi kəsməyin. Çünki Allahın mərhəmətindən ancaq kafirlər ümidlərini kəsər. (Yusif surəsi, 87)

Allahın mərhəmətindən ümid kəsmək, Allahın hər şeyə qadir olduğunu dərk etməmək deməkdir. Belə ki, bu, hər şeyini Rəbbimizə borclu olan insan üçün olduqca böyük

nankorluqdur. Çünki insanı yaradan, ona görmə, eşitmə, düşünmə qabiliyyətlərini verən, yeriməsini, qaçmasını, nəfəs almasını təmin edən, onu güldürən, sağlamlığını ona verən, ruzi verən, sevdiyi şeyləri ona bəxş edən Allahdır. Bu zaman Allahın mərhəmətindən ümid kəsmək, insanın bütün bunları görməzlikdən gəlməsi mənasını verər. Xüsusilə də əlindəki nemətləri itirdikdən sonra ümidsizliyə qapılmaq, Allahın bəyənmədiyi davranışdır:

İnsana nemət verdiyimiz vaxt, üz döndərər və uzaq durar; ona bir şər toxunduğu zaman da ümidsizliyə qapılar. (İsra surəsi, 83)

Nemətlər içində olarkən bu nemətləri onlara Allahın verdiyini heç düşünməyən, şükür etməyən insanlar, nemətlər əllərindən alındığı zaman, bir anda xeyli heyrətlənir və bütün ümidlərini itirirlər. Nankorluq və ümidsizlik Quran əxlaqını yaşamayan insanlarda birlikdə özünü göstərən pis əxlaq xüsusiyyətləridir. Başqa ayələrdə də bu cür insanlardan belə bəhs edilir.

Özlərinə xatırladılanı unutduqları zaman, onların üzərlərinə hər şeyin qapılarını açdıq. Belə ki, özlərinə verilən şeylərlə "sevinib əyləndikləri zaman", onları qəflətən yaxaladıq. Artıq onlar ümidlərini itirənlərdən oldular. (Ənam surəsi, 44)

Nəhayət, şiddətli əzab qapısını onların üzünə açdığımız zaman, heyrətə gəlib ümidsizliyə qapıldılar. (Muminun surəsi, 77)

İnkarçıların bu zəif və bəsit xarakterlərindən başqa bir ayədə isə, belə bəhs edilir:

İnsan özünə xeyir diləməkdən bezməz, lakin ona bir şər toxunan kimi ümidsizliyə qapılar. (Fussilət surəsi, 49)

Allah iman gətirənlərə inkarçıları dost tutmamağı, onların axirətə qətiyyən inanmadıqlarını, axirətdən ümid kəsmiş insanlar olduqlarını bildirir. Bu cür insanlar möminlərin həmsöhbət olmaqdan xüsusilə çəkindikləri kimsələrdir. Çünki axirətdən ümid kəsən insan istənilən cəhətdən mənfi xüsusiyyətlər daşıyan insandır. Heç bir sərhəd və ya qayda tanımaz, hər cür günahı işləyə biləcək xarakterdə olar. Necə ki, dünyada cinayətdən oğurluğa qədər hər cür qeyri-qanuni işin arxasında çıxış edən, insanlara çəkinmədən zülm

edən, qanunsuzluğu, fırıldaqçılığı həyat tərzinə çevirən insanlar həmişə axirətə inanmayan, axirət ümidi daşımayan, Allahdan qorxmayan insanlardır. Buna görə də, möminlərin axirətdən ümidini kəsmiş bu cür insanları dost tutmamalarının lazım olduğu ayədə belə bildirilib:

Ey iman gətirənlər, Allahın qəzəbinə düçar olmuş bir qövmü vəli (dost və müttəfiq) tutmayın; belə ki, onlar kafirlərin qəbir əhlindən ümid kəsdikləri kimi axirətdən ümid kəsiblər. (Mumtəhənə surəsi, 13)

Ümidsizlik, imansız insanlarla imanlı insanlar arasındakı ən nəzərə çarpan fərqlərdən biridir. İnkarçılar Allahın rizasını qazanmaq məqsədiylə yaşamadıqları üçün, Allahdan gələn hər şeyə razı olan bir möminin yaşadığı rahatlığı yaşaya bilməzlər. Buna görə də, bir an sonra belə baş verəcək şeylərin narahatlığını yaşayarlar. Hər hadisənin öz əleyhlərində baş verəcəyi zənninə qapılarlar.

Bir anlığa ümidvar olsalar də, yaşadıqları hadisənin hər hansı mərhələsinin gözlədikləri kimi olmadığını gördükləri zaman dərhal ümidsizliyə qapılarlar.

İmanlı insan üçün isə, bu vəziyyət tam əksinədir. İman, dünyada insanın sahib ola biləcəyi ən böyük nemətlərin başında gəlir. Allaha inanan insan ayədə bildirildiyinə görə: **"...ən möhkəm dəstəkdən yapışmış olar, (Bəqərə surəsi, 256)**. Yoxkən var edən, ölü ikən dirildən, xəstələndikdə şəfa verən, yedirdən, içirdən, böyüdən, qaranlıqdan nura çıxardan Allahdır. İman gətirən insan bu həqiqətdən xəbərdardır və bu böyük elmi bilməyin rahatlığını yaşayar.

İman, insanı ümidsizliyə sürüklənməkdən, qəm, kədər, sıxıntı, stress, qəzəb, gələcək qayğısı, qorxu və narahatlıq kimi insana maddi-mənəvi zərər verən faktorlardan uzaq tutar. Bütün bunların əksinə olduqca şən və dinc olmasına səbəb olar. Necə ki, imandan başqa bir dəstəkdən yapışmağa çalışan insan qətiyyən dincliyə nail olmadığını, məqsədlərinə nail olsa belə xoşbəxt olmadığını özü də görər.

Xüsusilə xəstələndiyi və ya yaşlandığı zaman həyatını həsr etdiyi insanların ona sadiq olmadığını, keçən illərin bu dünyada da heç bir fayda gətirmədiyini düşünüb ruhən çökər. Bu günə qədər özünün ayaqda saxlayan idealları, gözləntiləri, dostları, sevdikləri yox olmuşdur.

İman əhli isə dünyaya bağlı olmadığı üçün vücudunda meydana gələn dəyişikliklər, ətrafında və həyatında yaşadığı itkilər kədərlənməsinə və ya əhval-ruhiyyəsinin korlanmasına səbəb olmaz. İllərini Allah yolunda mübarizəyə həsr etmiş görkəmli İslam alimi Bədiüzzaman Səid Nursi imanın özünə kifayət etdiyini və özünə bitməyən ümid mənbəyi meydana gətirdiyini bu cür dilə gətirmişdir:

Məhz bütün qocalığımdan və firaq (ayrılıq) bəlalarından gələn təəssüratıma (kədərlərimə), mənə nur-u iman tam kafi gəldi; qırılmaz rica, tükənməz bir ümid, sönməz bir ziya, bitməz bir təsəlli verdi. Əlbəttə ki, sizə qocalıqdan gələn qaranlıq, qəflət, təəssürat və təəllümata (kədərlənmələrə), iman kafi və vafidir (tamdır). Əsil ən qaranlıq, ən nursuz, həmçinin təsəllisiz qocalıq və ən əlim (acınacaqlı) və heyrətamiz firaq (ayrılıq), əhl-i dəlalətin (haqq yoldan azanların) və əhl-i səfahətin (səfahətlərin) qocalıqları və ayrılıqlarıdır. O rica və ziya və təsəlli verən imanı zövq etmək və təsiratını (təəssüratını) hiss etmək üçün, qocalığa layiq və İslamiyyətə müvafiq ubudiyətkârânə (qulluğa yaraşan tərzdə) bir tavr-ı şuurdârânə (şüurlu bir rəftar) göstərməklə olar. Yoxsa, gənclərə bənzəməyə çalışmaq və onların sərxoşca qəflətlərinə dalıb qocalığını unutmaqla deyil..."

Bir insanın nemətlər içində olarkən şən və xoşbəxt olub, nemətlər əlindən alındığı zaman bir anda bütün xarakterinin dəyişməsi, heyrətamiz sıxıntı və narahatlığa qapılması əslində tam mənası ilə bəsitlik, alçaqlıqdır. İnsanın Allaha və axirətə həqiqi iman gətirmədiyinin dəlilidir. Eyni zamanda mühüm ağılsızlıq və qavrayış çatışmazlığının da göstəricisidir.

Çünki neməti verən də, alan da Allahdır. Mömini digər insanlardan fərqləndirən ən mühüm xüsusiyyətlərindən biri də, belə vəziyyət qarşısında göstərəcəyi gözəl əxlaqdır. Mömin hər iki vəziyyətdə də böyük sevinc və təslimiyyət içindədir. Möminlərin ən təməl xüsusiyyətləri bütün varlıqları ilə Allaha tam təslim olmaları, Onun özlərinə göndərdiyi Qurana uyğun hərəkət edib düşünmələri, Qurandan kənar heç bir zehniyyət, model və dünyagörüşünə sahib olmamalarıdır.

İman gətirməyənlər isə, Quran əxlaqına zidd olan həyat modelini bütün istiqamətlərdə yaşayarlar. Lağlağılıq, zülm, narahatlıq, qorxu, sıxıntı, yalan, ölüm qorxusu, dünya ehtirasları, kədər və s. şeylərin hamısı bu modelə daxil olan xüsusiyyətlərdəndir. Ümidsizlik də iman gətirməyənlərin demək olar ki, hamısında rast gəlinən xüsusiyyətdir. Yaşama məqsədlərini və həyat tərzlərini möhkəm zəmin üzərində, yəni Allaha iman və qulluq üzərində qurmadıqları üçün həyatları, fərasətləri, dayanma gücləri çox cüzidir. Hər an sarsılmağa, məhv olmağa əlverişli bir ruh halı içindədirlər.

Bitib tükənməyən, sönməyən, coşğulu bir ümid olması üçün Allaha tam iman gətirmək, güvənmək və sədaqət lazımdır. Təkcə Allahla dost olan insan lazımınca ümidvar yaşayar. Allaha inanmayan insan gerçək ümidi, yəni dünyəvi şərtlərə əsaslanmayan daimi ümidin nə olduğunu bilməz. Həmişə mənfi ehtimallar barəsində düşünər, hadisələri həmişə mənfi istiqamətdə qiymətləndirər. Allaha güvənib təvəkkül etməyən belə insanların narahat olmaq üçün bitib tükənməyən səbəbləri var. Hər şeyin nəzarətsiz təsadüflərə bağlı olduğunu zənn edərlər. Belə vəziyyətdə yalnız baş verməsi ehtimal olunan təbii fəlakətlər belə təvəkkülsüz insanlar üçün böyük sıxıntı mənbəyidir.

Kainatda çox həssas tarazlıqlarla bir-biriylə uyğunlaşma təmin edən bir çox təfərrüat var. Bu tarazlıqlardan birində meydana gələcək çox kiçik nisbətdəki dəyişiklik belə kainatda böyük fəlakətlər törədə bilər.

Məsələn, şiddətli bir zəlzələ yer qabığı üzərindəki hər şeyi alt-üst etməyə kifayətdir. Yer qabığı alovlanıb qaynayan, ən ağır metalların belə ərimiş vəziyyətdə olduğu minlərlə dərəcə temperaturdakı maqma üzərində sanki bir pərdə kimi üzür. Bu pərdənin hər an bir neçə yerindən cırılması və yer üzünün qaynayan lava kütləəriylə külə dönməsi olduqca asandır. Yer üzünün ən etibarlı sayılan yerləri belə bu təhlükədən uzaq deyil. Çünki aparılan hesablamaların heç biri dəqiqlik daşımır, yalnız təxmin və fərziyyə şəklində qalır. Həmçinin Yer kürəsi heyrətamiz sürətlə kosmosda fırlanaraq hərəkət edir, minlərlə meteorit yer kürəsinin çox yaxınlığından toxunub keçir. Günün birində böyük bir meteoritin Yer kürəsinə tuş gəlməyəcəyinə heç bir zəmanət yoxdur. Yalnız bir kilometr diametrindəki bir meteorit belə Yer kürəsindəki iqlim tarazlıqlarını alt-üst edərək canlı həyatını təhdid etməyə kifayətdir. Günəşdə baş verəcək böyük bir partlayış nəticəsində ətrafa yayılacaq enerji və radiasiya da Yer kürəsindəki həyata bir anda son qoya bilər. Üstəlik, bunlar yalnız bir neçə nümunədir və bunlar kimi daha minlərlə alternativ düşünülə bilər.

Bütün bunları görən bir insanda, əgər Allaha inancı və təvəkkül yoxdursa, çox böyük qorxu və narahatlıq hiss edər. Lakin iman gətirənlər isə öz bədənləri də daxil olmaqla, bütün kainatın Allahın idarə etdiyini bilər. Allahın ağlına və elminə tamamilə təslim olar. Kainatın həssas tarazlıqlar üzərində qurulmuş olması, onun imanını daha da artırır, Allaha olan bağlılığını, heyranlığını gücləndirir.

Bədiüzzaman Səid Nursi bu mövzuda müsəlmanların rahatlığı ilə inkarçıların qapıldıqları ümidsizliyi səmimi üslubu ilə belə ifadə edib:

"...Məhz, kainat içində maddi və mənəvi bütün bu silsilələr; imansız əhl-i dəlalətə (doğru və haqq yoldan azanlara) hücum edir, təhdid edir, qorxu verir, kuvvə-i mânəviyəsini (mənəvi gücünü) zir-ü zəbər (alt-üst) edir. Əhl-i imana (iman gətirənlərə), nəinki təhdid və qorxutma, bəlkə sevinc və səadət, ünsiyyət (dostluq), ümid və güc verir. Çünki əhl-i iman, iman sayəsində görür ki, o həddsiz silsilələri, maddi və mənəvi şiməndifərləri (qatarları), səyyar kainatları mükəmməl intizam və hikmət dairəsində bir vəzifəyə sövq edən bir Sani-i Hakim (hikmət sahibi olan Yaradıcı) onları işlədir. Zərrə qədər də işlərində səhv etmirlər, bir-birinə təcavüz edə bilmirlər. Və kainatdakı kəmâlât-ı sənətə (mükəmməl sənətlərə) və təcəlliyat-ı cəmâliyəyə (gözəllik təsvirlərinə) məzhər olduqlarını (qovuşduqlarını) görüb kuvvə-i mânəviyəyi (mənəvi qüvvəni) tamamilə əlinə verib, səadət-i əbədiyənin (əbədi səadətin) bir nümunəsini iman göstərir..."

İnkarçıların ən çox ümidsizliyə qapılacaqları gün, bütün insanların hesab vermək üçün diriıldiləcəkləri axirət günü olacaq. Qiyamətin başlaması ilə, çətin bir günlə qarşı-qarşıya

qaldıqlarını dərhal anlayan inkarçılar, həyatları boyu qaçdıqları həqiqətlə çox açıq şəkildə qarşılaşacaqlar, dünyada olduqları müddətdə imana heç yaxınlaşmadıqları üçün təsviredilməz peşmançılıq hissinə qapılacaqlar. Allahın vədlərini xatırlayacaqlar, cəhənnəmə soxulacaqlarını anlayacaqlar. Bu məqamda və bundan sonra yaşayacaqları ümidsizlik, ümidsizliyin ən son həddidir. Necə ki, dünyada yaşanılan heç bir peşmançılıq, heç bir ümidsizlik nümunəsi bu qədər şiddətli deyil. Allah, axirətin başlanğıcı olan qiyamət günündə inkarçıların yaşayacaqları fəlakəti bu cür ifadə edir:

Qiyamət qopacağı gün günahkarlar ümidsizcəsinə məhv olacaqlar. (Rum surəsi, 12)

Qurana dəvət edildikləri halda, öz istəkləri ilə inkarda israr edən insanların cəhənnəm əzabının çox şiddətli olacağı və bu əzabın yüngülləşdirilməyəcəyi də ayələrdən aydın olur. Zuxruf surəsində belə buyurulur:

Onların (əzabı) yüngülləşdirilməyəcək və orda onlar ümidlərini itirmiş şəxslər olacaq. Biz onlara zülm etmədik; ancaq onların özləri zalımdırlar. (Zuxruf surəsi, 75-76)

# Dinsizlik insanları ümidsizliyə və nəşəsizliyə sürükləyər

Adnan Oktar: ***Din ruhun qidasıdır, insanların gümrah, şən, sağlam olmasını təmin edən ruhi dərmandır eyni zamanda, Allah bizi dinlə sağlam olacaq şəkildə yaratmışdır. Din getdikdə insanların sağlamlığı pozulur, cəmiyyətlərin sağlamlığı pozular, baxın çölə, insanların nə qədər bədbəxt olduğunu görəcəksiniz, bu din təhsilinin kafi verilməməsindən qaynaqlanır. Din insana sevinc bəxş edər. Yaşama arzusu, yaşama həyəcanı verər. O biri cür insanlarda ümidsizlik, qorxu və təvəkkülsüzlük meydana gələr. Bunun nəticəsində də ruhən və bədən cəhətdən çökmə yaşanar, hətta ictimai çökmə də olar.*** *Məsələn, iqtisadi böhranın təməlində də yenə ateist düşüncənin qalib hücumları var. Darvinist düşüncənin hücumları var. Bunu elm adamları söyləyir, iqtisadi böhranın kökü budur deyə. Darvinizmdən qaynaqlanır şəklində açıqlamaları var. İnsanları laqeydliyə sövq edir, televole mədəniyyətinə sövq edir. Hər kəs özünü xilas etmək ardınca qaçır. Yəni vətən, millət, din, iman kimi belə yüksək düşüncələr insanlar üçün unudulması lazım olan hadisələr kimi qalır. Köməksevərlik, fədakarlıq, vətənə, millətə faydalı olma düşüncəsi ortadan qalxır. Daha eqoist, özünü düşünən xarakter meydana gəlir. Bunun nəticəsində isə, iqtisadiyyatda da inkişaf yaşanmır, kənd təsərrüfatında da inkişaf yaşanmır, hər kəs özünü xilas etməyin ardınca qaçır. Dolayısilə insanlar pullarını çəkirlər, içlərinə qapanırlar, kimsəyə etibar edə bilmədikləri üçün pul bloklanmış olur, yalnız özünü canlı tutma, ailəsini canlı tutma düşüncəsi olur. O zaman da cəmiyyət getdikcə iqtisadi cəhətdən çöküşə doğru gedir... Həddən ziyadə, yəni bir kərə rəqabət ehtirasını meydana gətirir. Gələcək düşüncəsi insanlarda yox olur, çünki "necə olsa ölüb gedəcəyəm" deyir. "Boşluq olacağam mən. Həyatın mənim üçün heç bir mənası yoxdur" deyir. "Mən yalnız həyatın dadını çıxardım" düşüncəsində olur. Dolayısilə rəqiblərini əzmə düşüncəsində olur. Halbuki rəqiblərinin əzməsi ilə deyil, rəqiblərinin də güclənməsi ilə iqtisadiyyat güclənər. Yəni əzən-əzənə olan bir sistemdə, o onu əzir, o onu əzir sonunda ikisi də məhv olmağa gedir, elə deyil? İki əlavə bir-birinə vuran kimi, ikisi də mənfiyə çevrilir bu dəfə. Darvinizmin düşüncəsi də budur onsuz da. Vuruşmanı tövsiyə edər, vuruşmanı təşviq edər və vuruşmanı elmi bir həqiqət kimi göstərər. Bunun nəticəsində isə, cəmiyyətdə degenerasiya və pozulma baş verir. I və II Dünya müharibələrinin təməlində də bu vardı. Vuruşma məntiqi vardı. Darvinizmin dünyadakı təsiri özünü sırf faşizmlə göstərmədi, kommunizmlə də göstərdi, vəhşi kapitalizmdə də göstərdi.* ***Hər yerdə göstərdi və dünyanı bədbəxtliyə, nəşəsizliyə və ümidsizliyə sürüklədilər. Hazırda dünyada heç kim heç kimə güvənmir. Hər kəs bir-birindən qorxur, hər kəs bir-birindən çəkinir. Süni şəkildə nəşələnməyə çalışırlar. İntihar halları artdı. Narkotik istifadəsi çox kəskin şəkildə inkişaf etdi. Yuxarı sinif şagirdlərinə qədər gəlib çatdı və bunu dayandıra da bilmirlər. Amerikada, Avropada hər yerdə belədir.*** *Hələ 14 yaşında, 15 yaşında uşaq narkotik aludəçisi olar. Dolayısilə darvinizm dünyada heyrətamiz təxribat meydana gətirdi. Bunu, din dərsləri ilə də*

*olar, fəlsəfə dərsləri ilə də olar, aradan qaldırmağın yolu gənclərə elmin göstərdiyi həqiqətləri göstərməkdir. Yəni saxta elmin, yalanların yerini elmlə, elmin həqiqətən göstərdiyi konkret dəlillər vasitəsilə həqiqəti ortaya qoymaqla olar (hörmətli Adnan Oktarın Dem* telekanalına verdiyi müsahibədən*, 18 dekabr 2009-cu il).*

## Ümidsizliyi yaşayan insanların ruh halları

İnsana həyat verən, diri saxlayan, xoşbəxt və rahat olmasını təmin edən ən mühüm mənəvi faktorlardan biri "ümidvar" ruh halıdır. Bu, bir insanın həyatını sağlam şəkildə davam etdirə bilməsi üçün də, lazım olan ən mühüm mövzulardan biridir. Necə ki, dünyada "ümidvar" ruh halını tam mənası ilə yaşamadıqları üçün, əzab və sıxıntı yaşayan, özlərinə zülm edən, dünyanı özlərinə yaşanılmaz yer halına gətirən çox sayda insan var.

Bu insanların problemi, baş verən bütün hadisələri tamamilə Allahın idarə etdiyini düşünməmələri, taleyə tam təslim olmamalarıdır. Halbuki insana ancaq, Allaha və Onun yaratdığı taleyə tam təslim olmaq rahatlıq verər. Gələcəyə ümid bəsləməsi, qorxu və narahatlıqlara qapılmadan, təvəkkül edərək yaşaması, onu həm maddi, həm də mənəvi cəhətdən sağlam edəcək. Əks halda təmkinli və sağlam olması qeyri-mümkündür. Gələcəkdən ötrü, hətta bir an sonradan belə, narahatlıq və qayğı içində yaşayan insan sanki həyatda yaşyarkən, həyatını itirmiş kimidir. Belə bir insandan böyük təşəbbüslər, böyük xidmətlər, gözəl fikir və düşüncələr, gözəl davranışlar gözləmək də yanlış olar. Çünki o ruhunda dayanmadan davam edən məmnuniyyətsizlik və narahatlığı yaşayır.

Nəfsinin xoşlamadığı ən kiçik hadisə ilə qarşılaşdığı zaman sarsılan, depressiyaya düşən, ruhən çökən bu insanlar bir çox cəhətdən ziyana məruz qalarlar. Ruhları əldən düşər; bununla birlikdə bədənləri də çökər. Halbuki insan ancaq təslimiyyətli və təvəkküllü ruh halına sahib olduqda, rahat, sağlam və məhsuldar olacaq şəkildə yaradılıb.

İman gətirməyən bir insan üçün hər şey problem ola bilir. Mühüm bir gündə xəstələnməsi, mütləq iştirak etməsi lazım olduğunu düşündüyü bir dəvətə gedə bilməməsi, bir araşdırmasını müvəffəqiyyətlə nəticələndirə bilməməsi, çox istədiyi bir istirahət məkanına gedə bilməməsi, özünü bəyəndirməyə çalışdığı insanların gözünə girə bilməməsi, hətta avtomobilində kiçik bir cızıq olması da, onda ani və böyük kədərlərə, ümidsizliklərə səbəb ola bilər. Buna bənzər kiçik hadisələr belə, anən əhval-ruhiyyəsinin pozulmasına səbəb ola bilər. Bunun səbəbi, dünya həyatına həddindən artıq dəyər verməsi, axirəti düşünməməsi, bir gün bu dünyanı tərk edib mütləq öləcəyi həqiqətini heç ağlına gətirməməsidir. Bunları düşünmədiyi üçün kiçik hadisələrdə, problemlərdə ilişib qalır və kiçik hədəflərə bağladığı ümidləri çox tez sarsıla bilir. Belə bir həyat tərzini mənimsədiyi üçün də, həmişə bədbəxt və narahat olar.

Fiziki görünüşündə hər hansı bir səbəbdən pozulma baş verən insan, bir müddət depressiyaya düşərək böyük ümidsizlik dövrü yaşaya bilər. Bu müddət ərzində, fiziki görünüşündə hər hansı qüsur olmadığını düşünərkən, gözlənilməz davranışlar göstərə bilər. Məsələn, çox gözəl və ya yaraşıqlı bir dostunun sahib olduğu xüsusiyyətləri qısqandığı üçün onu lağa qoyar, onu çirkin göstərməyə çalışan söhbətlər edər.

Başqa biri isə, eyni hadisə qarşısında içinə qapanar, heç bir dostuyla görüşməz. Bütün bunlar taleyə təslim olmamağın və təvəkkül etməməyin gətirdiyi davranış pozğunluqlarıdır.

Ümidsizlik insana heç nə qazandırmaz, nə əxlaqa, nə insanın ruh sağlamlığına, nə gələcəyinə, nə də hal-hazırdakı həyatına ən kiçik bir müsbət təsir göstərməz. Əksinə insanı xəstəliklərə, hətta ölümə qədər sürükləyə biləcək şəkildə mənəvi sarsıntıya salar. Ümid dolu olmağın isə, maddi və mənəvi cəhətdən qazandıracağı çox şey var. Əvvəla Allahın bir əmrini yerinə yetirdiyi üçün insan çox mühüm bir ibadəti yerinə yetirmiş və Allahın rizasını qazanmış olar.

İnsanın hər hadisə qarşısında ümid dolu olması, əsla ümidsizliyə qapılmaması ruhunda bir çox müsbət inkişafa səbəb olar. Təvəkküllü, dünya ehtirasları olmayan, səbirli, sakit, hadisələrin sürükləyib aparmadığı, güclü, məmnun, insanlar tərəfindən hörmət edilən, ağlına müraciət edilən, yetkin, lider xarakterli bir insan olacaq.

## Ağılsızların ümidlənməsi

Ümidvar olmaqla Allahın əmrlərinə tabe olmaq və Onun sərhədlərini qorumaq arasında çox mühüm əlaqə var. İnsanın Allahın rəhmətindən ümidvar olması, əlbəttə, Ona olan yaxınlığı və bağlılığı, Quranın hökmlərini nəzərə almasıyla mütənasibdir. Yoxsa Allahı xatırlamayan, həyatını öz bildiyi kimi yaşayan, Allahın hökmlərindən üz döndərən bir insan, əgər bu rəftarlarını düzəltməsə, tövbə edib Allaha təslim olmasa bu əxlaqına qarşılıq gözəl mükafat veriləcəyini düşünməsi, təkcə özünü aldatmaq olar.

Məhz, ağılsızlar bu cür ümidlənər. Allahı lazımınca tanıyıb təqdir edə bilməyən, Qurandan, İslamdan xəbəri olmayan bir çox insan vardır ki, axirətdə gözəl qarşılıq alacaqlarına özlərini inandırıblar. Bu möminlərin ümidvar olma xüsusiyyətlərindən kənar, inancsızlığın gətirdiyi qorxmazlığı və çirkin cəsarəti göstərir. Bu insanlar din əxlaqından uzaq olduqları üçün sıxılan vicdanlarını, bu cür saxta ümid və gözləntilərlə rahatlaşdırmağa çalışar, özlərini də buna inandırarlar. Məsələn, bir tədqiqatçı Quran əxlaqına uyğun kiçik bir davranış sərgiləməsə də, gördüyü elmi işlərin özünü "qurtaracağını" ümid edər. Yaxud bir fəlsəfəçi dini rədd etsə belə, çox mədəni bir insan olduğu üçün digərlərindən üstün olduğunu və axirətdə buna müvafiq qarşılıq alacağını zənn edər. Bir tacir isə, insanlara təmin etdiyi mal və imkanlar sayəsində axirətdən gözlənti və ümid içində olar. Halbuki bu insanların danışıqlarına baxıldığı zaman, əslində axirətin varlığı barədə şübhə içində olduqları görünər. Bir ayədə inanmadığı halda, axirətdən yana gözlənti içində olan bu insan modeli ayələrdə bu cür bildirilir:

Onlara iki kişinin əhvalatını misal çək; Bunların birinə iki üzüm bağı verib onları xurmalıqlarla əhatə etdik və aralarında əkin saldıq. Hər iki bağ öz barını verdi və bu bardan heç bir şey əskilmədi. Biz də onların arasından bir çay axıtdıq. Birinin başqa məhsulları da vardı. Beləliklə, o öz dostuyla danışarkən ona: "Mən sərvətcə səndən daha zəngin və adamlarımın sayına görə səndən daha qüvvətliyəm!".

O nəfsinə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa quruyub yox olacağını düşünmürəm. Qiyamət saatının gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha xeyirli bir nəticə qismətim olacaq!" (Kəhf surəsi, 32-36)

Göründüyü kimi, qiyamət gününə belə şübhə edən bu insan, axirətə getdiyi təqdirdə xeyirli bir nəticə ilə qarşılaşacağı şəklində əsassız məntiqə sahibdir. Bu əsassız məntiqi də, həqiqətən iman gətirməməsinin gətirdiyi, ağılsızlığından qaynaqlanır. Bu nümunə dövrümüzdə də olduqca yayılmış bir zehniyyəti əks etdirir.

Bu axmaq ümid və gözlənti içində olanlar, dünyada (öz mənfəətlərinə mütənasib şəkildə) etdikləri yaxşılıqların qarşılığını almalarının lazım olduğunu, bunu təbii haqqları olduğunu düşünərlər. "İşləmək ən böyük ibadətdir", "xalqa xidmət Haqqa xidmətdir" kimi şüarları mənimsəyər və tez-tez istifadə edərlər. Əlbəttə ki, bu düşüncələr səmimi olduğu müddətcə insana fayda verə bilər, lakin bir tərəfdən Allaha qarşı nankor və üsyankar rəftar göstərər və Quranda qadağan edilən hər cür çirkin rəftarı, pis əxlaqı tətbiq edərkən, digər tərəfdən də dünyada nəfsi üçün gördüyü işlərdən qarşılıq gözləmək məntiqsizdir. Lakin bu cür insanlara bunun boş və axmaq gözlənti olduğu, Allah qatında qiymətli olanın iman gətirib yalnız Allahın rizasını qazanmaq üçün görülən işlər olduğu xatırladıldıqda, bu həqiqəti qəbul etməyə yanaşmazlar. Halbuki Allaha iman gətirmədən və Allahın rizası nəzərə alınmayan işlərin axirətdə qazanc gətirməyəcəyi, boşa gedəcəyi Quranda bildirilən həqiqətlərdir. İman gətirilmədiyi təqdirdə (Allahın diləməsi istisna olmaqla) həqiqətən də görülən işlərin boşa gedəcəyi ayələrdə belə xəbər verilmişdir:

De: “Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. (Kəhf surəsi, 103-104)

Özlərini dindar zənn etdikləri halda, əslində Quranda təsvir ediləndən fərqli bir dini modeli mənimsəyən və dolayısilə şirkə düşən insanlar da, axirətdən yana boş ümid və gözlənti içindədirlər. Halbuki Qurandan başqa heç bir dini anlayış və tətbiqin Allah qatında

dəyəri yoxdur. Çünki Allahın bildirdiyi haqq din Qurandadır, bundan savayı din adından, İslam adından mənimsənilən modellərin heç biri Allah qatında etibarlı deyil. Quranda dinə xidmət etdiyini zənn edən, lakin şirkə əsaslanan zehniyyətlərindən ötrü, xidmətləri hədər olanlardan belə bəhs edilir:

Şirk qoşanların, öz inkarlarına bilavasitə özləri şahid olduğu halda, Allahın məscidlərini təmir etmələrinə (haqq və səlahiyyətləri) yoxdur. Məhz bunlar, etdikləri hədər olanlardır. Həmçinin bunlar odda əbədi qalacaq kimsələrdir. (Tövbə surəsi, 17)

Şirk qoşduqları halda, axirətdən yana gözlənti içində olanların, axirətdə heç gözləmədikləri bu vəziyyət qarşısında düşdükləri bu heyrət də Quranda belə bildirilir:

O gün onların hamısını bir yerə toplayacaq, sonra isə şirk qoşanlara deyəcəyik: “(Bir şey) zənn edərək şirk qoşduqlarınız haradadır?”

Sonra onların: "Rəbbimiz olan Allaha and olsun ki, biz müşrik deyildik" deməkdən başqa fitnələri olmadı (qalmadı).

Bax, özlərinə qarşı necə yalan söylədilər və uydurduqları da özlərindən uzaqlaşıb yox çıxdı. (Ənam surəsi, 22-24)

Göründüyü kimi ümidvar olmaq, ancaq imanla dəyər qazanır, bir ibadət və gözəl əxlaq xüsusiyyətinə çevrilir. Həqiqi imana sahib olmadan, Quranın hökmlərini nəzərə almadan, Allahın bildirdiyi ibadətləri yerinə yetirmədən, Allahdan və axirətdən ümid və gözlənti içində olmaq isə, öz aləmində vicdanı rahatlatmağa xidmət edən, səmimiyyətsiz və əsassız zehniyyətin məhsuludur. Belə bir düşüncənin özünü aldatmaqdan savayı bir mənası da yoxdur. Möminlərin ümidvar olmaları ilə, qəflət əhlinin və müşriklərin boşuna ümidlənmələrini bir-birinə qarışdırmamaq lazımdır.

Allahdan cənnəti ümid edən bir insan da bunun üçün Allahın ayələri istiqamətində davranışlar sərgiləməlidir. Allahın rizasına uyğun davranan, Onun əmr və tövsiyələrinə əməl edən, heç bir şərait və mühitdə Allahın ayələrindən güzəştə getməyən insan, bu vəziyyətdə Allahın cənnətlə mükafatlandıracağını bildirdiyi insanlardan olmağı ümid etməyə haqq qazanar. Bir ayədə belə bildirilir:

Var-dövlət və övladlar dünya həyatının cəlbedici bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid baxımından daha xeyirlidir. (Kəhf surəsi, 46)

Bura qədər deyilənlərlə birlikdə mühüm bir mövzuya diqqət çəkməkdə fayda var. Bir insan bu ana qədər Allahın bəyənməyəcəyi bir əxlaqı və həyat tərzini davam etdirmiş ola bilər. Lakin mühüm olan insanın Quranda bildirilən həqiqətlərdən xəbərdar olduqdan sonra Allaha tövbə edib, səmimi insan olmağa qərar verməsidir. Həmçinin bu qərarı istiqamətində gözəl əxlaq göstərərək həyatına davam etməsidir. Bu yolla həmin bu insan keçmişdə etdiyi səhvləri Allahın bağışlamasını və cənnəti ümid edə bilər.

## Şeytan insanlara ümidsizliyi aşılamaq istəyər

Şeytan özünə dost seçdiyi insanlara həmişə özünə inamsızlığı, gələcək üçün ümidsiz olmağı, hadisələrə həmişə pessimist cəhətdən baxmağı təlqin edər. İnsanların iman gətirmələrini, Allaha qarşı itaətkar olmalarını, taleyə təslim olmuş, təvəkküllü, ümidvar və şövqlü şəkildə yaşamalarını istəməz. Çünki bütün bu sadalananlar həm Allahın bəyəndiyi və Ona yaxınlaşdıran, həm də din əxlaqının yaşanması üçün zəruri olan xüsusiyyətlərdir. Şeytan isə insanların Allaha yaxınlaşmalarını, Allahın dinini şövqlü və qətiyyətli şəkildə yaşamalarını istəməz. Buna görə də, insanı ümidsizlik təlqini ilə ruh düşkünlüyünə, şövqsüzlüyə, pessimizmə, çarəsizliyə və bezginliyə sürükləməyə çalışar.

Şeytanın möminə etdirmək istədiyi, lakin etdirə bilmədiyi şeylərdən biri də, mənfi kimi görünən mühitlərdə ümidsizliyə salmaqdır. Şeytanın təkcə səmimi möminlərə gücü çatmaz, onları öz tərəfinə çəkə bilməz. Çünki möminlər imanlarına görə həmişə Allahın əmr və tövsiyələrinə tabe olarlar. Ümidvar olmaq Allahın Quranda bildirdiyi qəti əmrdir. Buna görə də, iman gətirənlərin bu mövzuda da fərqli münasibət göstərmələri qeyri-mümkündür. Çünki Allah ayəsində möminlərə; **"Allahın mərhəmətindən ümidinizi kəsməyin. Çünki Allahın mərhəmətindən ancaq kafirlər ümidlərini kəsər"** deyə buyurur, (Yusif surəsi, 87). Buna görə də, möminlər belə bir ruh halına sahib olmaqdan qətiyyətlə çəkinərlər.

Eynilə, digər Quran ayələrində də ümidsizliyə qapılmaq qınanılır və inkarçıların mənfi bir xüsusiyyəti kimi bildirilir. Ayələrdə belə buyurulur:

İnsan özünə xeyir diləməkdən usanmaz. Lakin ona bir pislik dəysə, məyus olub ümidini itirər. Halbuki ona toxunan bir zərərdən sonra Özümüzdən ona bir mərhəmət daddırsaq, mütləq deyər: "Bu mənim haqqımdır və Mən Qiyamət saatının gələcəyini də

güman etmirəm. Rəbbimə qaytarılsam belə, Onun yanında mənim üçün ən gözəl nemət hazırlanar!" And olsun, Biz kafirlərə nə etdiklərini mütləq xəbər verəcək və onlara hökmən ağır bir əzab daddıracağıq. (Fussilət surəsi, 49-50)

Allahın ayələrini və Ona qovuşmağı "inkar edənlər"; məhz onlar, Mənim rəhmətimdən ümid kəsənlərdir; və məhz onlar, ağrılı əzab onlarındır. (Ənkəbut surəsi, 23)

Ümidsizliyə qapılan, üsyan edən insan şeytanın tələsinə düşmüş, onun əmrlərini yerinə yetirmiş olar. Hər vaxt ümidvar olan, gələcəyinə həmişə ümidlə baxan mömin isə həm Allahın razılığını və axirət savabını qazanar, həm də Allahın bir neməti olaraq dünyada da sağlam və xoşbəxt həyat yaşayar. Hər şəraitdə ümidvar, Qurana sıx bağlı və Allahı çox yaxın dost tutmuş olacağı üçün, şeytan ümidsizliyə qapılması istiqamətində onu aldada bilməyəcək. Bu mövzu din əxlaqını təməlini meydana gətirən mühüm mövzulardan biri olduğu üçün, mömin Quranla əlaqədar istənilən mövzuya olduğu kimi, bu mövzuya da olduqca diqqət göstərər.

Mövzunun digər bir istiqaməti də, Allahın dininin yaşanmasını istəməyən şeytanın, insanlara həmişə dindən kənar əxlaq modellərini yaşatmaq istədiyi və ümidsizliyin də bu modelin bir parçası olmasıdır. Belə ki, bəzi cəmiyyətlərdə ümidsizlik sanki həyat fəlsəfəsi halına gəlir. Şeytanın təsiri altına aldığı insanlar, ümidsizliyin və pessimizmin dilə gətirildiyi, mahnılardan, filmlərdən və izahatlardan nəfsani bir ləzzət alacaq vəziyyətə gələrlər.

Halbuki ümidsiz insanın ağlı, məntiqi və mühakiməsi sağlam qərar almağa imkan vermir. Ümidsizlik insanın fiziki və əqli sağlamlığını itirməsinə səbəb olduğu kimi, dərəcəsinə görə insanları öz həyatına son verməyə, intihar etməyə qədər sürükləyən ruhi xəstəlikdir. Əlbəttə ki, belə bir insanın Quran əxlaqını lazımınca yaşaması gözlənilə bilməz. Bu da şeytanın maraqlarına olduqca uyğun gələn vəziyyətdir. Çünki belə vəziyyətdə insanları din əxlaqından və axirətdən hər hansı gözləntiləri ola bilməyəcək şəkildə azdırmış, özü ilə birlikdə sonsuz əzaba sürükləmiş olar. Onsuz da bəşəriyyət tarixi boyunca şeytanın ən böyük hədəfi də budur.

Ümidsiz insan özünə olduğu kimi ətrafındakı insanlara da mənfi və pessimist hal aşılayar. Bu hərəkəti ilə sanki şeytanınköməkçisi olar. Çünki şeytan insanlarda hakim etmək istədiyi ruh halını onun vasitəsilə təlqin edər. Belə hərəkətlə də insan (bilərək və ya bilməyərək) şeytana xidmətçisinə çevrilmiş olar. Halbuki insan şeytana deyil, Allaha qulluq etmək üçün, Allahın dininə xidmət etmək üçün yaradılmışdır.

# Ümidsizliyi yaradan şeytani səs: "Vəsvəsə"

Vəsvəsə şeytanın təlqinləri nəticəsində insanın zehnində yaranan boş şübhə və xülyalardır. Vəsvəsə insanın doğru qərar almasına mane olar. Onu şübhəyə salıb məşğul edər, qərarsızlığa sürükləyər, içini sıxar, mənasız qorxulara səbəb olar, ağlını və düşünə bilmə qabiliyyətini pozar, özünə olan etibarını yox edər. İnsan narahat, qərarsız, qorxaq, ümidsiz, pessimist ruh halına bürünər. Vəsvəsə və onun gətirdiyi psixoloji problemlər, xüsusilə tale barəsində məlumatı olmayan, Allaha təvəkkül etməyi bacarmayan, zəif imanlı insanların yaşadıqları problemlərdir.

Şeytanın məqsədi, belə insanlara boş xülyalar pıçıldayaraq onları Quran əxlaqından uzaqlaşdırmaq, Allahın qüdrətindən xəbərsiz, Allahı lazımınca təqdir edə bilməyən insanlar halına gətirməkdir. Şeytan, həyatını boş məqsədlərə sərf edən, Allahın rizasını deyil, öz istək və ehtiraslarını ön planda tutan, əsil yaradılış məqsədi olan Allaha qulluq etmək vəzifəsini unutmuş bir insan modeli meydana gətirmək üçün çalışar. Ona qulaq asan insanlar isə, sırf şeytanın verdiyi vəsvəsəyə düşdükləri, onları əhəmiyyətli gördükləri, Allahı unutduqları üçün dünyada və axirətdə itki içində olarlar.

Dünyadakı itkilərinin başında, həyatlarındakı narahatlıq və qərarsızlıq durar. İnsanlar həyatlarının bir çox fərqli mərhələsində, insandan insana dəyişən çox müxtəlif mövzularda vəsvəsəyə düşə bilərlər. Çox vaxt doğru qərar ala bilməməyin, hadisələr qarşısında yaxşı seçim edib edə bilməməyin narahatlığı ilə yaşayarlar. Təhsil, iş kimi mövzularda həmişə qərarsızdırlar. "Görəsən digər işi mi seçsəydim?" və ya "digər məktəbə mi getsəydim daha yaxşı olardı?" kimi cümlələri bu insanlardan eşidərsiniz.

Burada ağla; "həmişə yaxşını axtarmağın nə kimi problemləri ola bilər?" şəklində suallar gəlir. Lakin burada izah etmək istədiyimiz şey, bu sualların yaxşılığı və gözəlliyi tapmağa istiqamətli deyil, əksinə insanları yaşadıqları hər gündən, hətta hər saniyədən ötrü sıxıntıya və tərəddüdə salmağa istiqamətli olmasıdır. Çünki belə ruh halında yaşayan insanlar özlərini davamlı sorğu-sual etdikləri üçün, düşüncələri, ağılları həmişə qarışıq və bulanıq olar, heç vaxt etdiklərindən əmin ola bilməzlər və əsil düşünmələri lazım olan mövzuları düşünə bilməyəcək hala gələrlər. Məhz bu, vəsvəsənin insana verə biləcəyi ən böyük zərərlərdən biridir.

Vəsvəsə, səbəb olduğu qərarsızlıq və böyük-kiçik müxtəlif xülyalarla bir çox insanın vaxtının çoxunu, dolayısilə də həyatının böyük hissəsini korlayan bir bəladır. Qərarsızlıq və şübhələrin səbəb olduğu boş xülyalar nəticədə stressli, gərgin ruh halına gətirib çıxardar. Əgər vəsvəsə içində olan insan, Allaha iman gətirməyən və ya Allahın varlığına iman gətirsə də Onun gücünü təqdir edə bilməyən vəziyyətdədirsə, belə olan halda vəsvəsəsi və şübhələri böyüdükcə böyüyər. Özünü yaratmış olan Allaha arxalanıb güvənmədiyi üçün, şeytanın

təlqinlərindən xilas ola bilməz və qapıldığı vəsvəsələr içinə bürüyüb heç dayanmadan onu sıxar. Hər kəsin yaxın ətrafında, hərdənbir özündə də gördüyü bu ruh halı çox geniş şəkildə yaşanır.

Vəsvəsənin ən mühüm zərəri, insanın ağlını örtməsi və sağlam düşünməsinə mane olmasıdır. Gündəlik həyatı boyunca zehnini məşğul edən xülyalar və şübhələrlə məşğul olan bir insanın isə, Allahı lazımınca tanıyıb təqdir etməsi, Onun istədiyi şəkildə yaşaması qeyri-mümkündür. Bu insan dünyaya istiqamətli ehtiras və narahatlıq içindədir. Buna görə də, Quranda əmr edilən təvəkkülü, rahat və sakit ruh halını, buna bağlı olaraq formalaşan gözəl əxlaqı qazana bilməz.

Vəsvəsəli ruh halına sahib insan doğru ilə yanlışı, yaxşı ilə pisi, etməsi və ya etməməsi lazım olan şeyləri də bir-birinə qarışdırar. Başına gələcəklərlə əlaqədar davamlı vəsvəsə, qorxu və şübhə içindədir. Aldığı qərarların doğruluğu mövzusunda da davamlı tərəddüd içindədir. Bu vəziyyət onun zehnində güclü təzyiq meydana gətirər və məntiqli düşünməsinə, sağlam qərarlar almasına, mühakimə etməsinə mane olar.

Halbuki bütün bunlar olduqca mənasızdır. İnsanın bu dünyada mövcud olma məqsədi Allahın istədiyi kimi qul olmaq və bu səyində səmimidirsə, Rəbbbimizin həmişə dostu olduğunu unutmamaqdır. Belə bir insan hər şeyi yaradanın Allah olduğunu unutmaz. Yaşadığı böyük-kiçik hər hadisənin Allahın istəyi daxilində reallaşdığını bilər. Məhz vəsvəsələr içində həyatını davam etdirən və özünü əsl qurtuluşa aparacaq yoldan uzaqlaşan insanların da, bu həqiqətləri qavraması şərtdir. Bu insanlar da sahib olduqları xülyaların, şübhələrin, vəsvəsələrin yaşadıqları hadisələrin nəticəsini dəyişdirməsinin qətiyyən mümkün olmadığını bilməlidirlər. Təkcə bu şüura sahib insanlar rahat həyat yaşaya bilərlər. Çünki bu həqiqəti bilən insanlar, özlərini yoxdan var edən Allahın təyin etdiyi və onlar üçün mütləq xeyirli olan taleyə təslim olmuşdurlar.

Özünün bir tale tamaşaçısı olduğunu, Allahın özü üçün təqdir etdiyi taledən heç vaxt kənara çıxa bilməyəcəyini anlaya bilməmiş insanlara isə, şeytan əziyyət verər. İnsanların vəsvəsə kimi getdikcə böyüyən, sıxıntıya salan, ruh halını korlayan bir bəladan xilas ola bilməməsinin təməlində də bu problemə necə yaxınlaşacağını, bunun nədən qaynaqlandığını və bundan necə xilas olacağını bilməməsi dayanır. Bu mühüm problemin həlli, güclü Allah sevgisi və qorxusu, imandan qaynaqlanan möhkəm təslimiyyət hissidir.

## Vəsvəsə insanı ümidsizliyə sürükləyər

Kitab boyunca iman gətirən insanların həmişə ümidvar ruh halına sahib olduqlarından bəhs etdik. Həqiqi imana sahib insanların tükənməz ümid içində olduqlarına diqqət çəkdik.

Məhz buna görə də, insanları Allahın yolundan döndərməyə çalışan şeytanın ən hiyləgər taktikalarından biri də insanlara gözəllikləri və xeyirləri ümid etmə mövzusunda vəsvəsə verməyə çalışmaqdır. Ümidsizlik, şeytanın insanları Allahın yolundan ayırmaq üçün verdiyi vəsvəsələrlə meydana gələr. Bu vəsvəsələrə qapılıb hər hansı mövzuda ümidsizliyə qapılan insanlar, təməldə zəif imana sahibdirlər. Bu vəziyyət, həmin bu insanların taleyə imanlarının tam və lazımınca olmadığının da bir göstəricisidir.

Halbuki Quranda hər şeyin Allahın idarəsində olduğu ayələrdə çox açıq şəkildə bildirilmişdir. Bu mövzudakı bir ayə belədir:

Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan bir yarpaq belə düşməz... (Ənam surəsi, 59)

Ayədə bildirildiyi kimi, Allah istmədən və məlumatı olmadan bir yarpaq belə düşməz. Yəni yer üzündəki hər hadisə Allahın məlumatı və idarəsi altındadır. Məhz insanlar dünyanın xüsusi olaraq yaradılmış imtahan yeri olduğunu bilməli və bu xüsusi mühitdə bir çox imtahan vəsiləsini Allahın xüsusi olaraq yaratdığını da unutmamalıdırlar.

Allah yer üzündəki imtahanın tələbi olaraq insanları hər cür hadisə ilə sınaya bilər. Necə ki, Quranda bu həqiqət belə bildirilmişdir:

Andolsun, Biz sizi bir az qorxu, aclıq və bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayacağıq. Səbir edənlərə müjdə ver. (Bəqərə surəsi, 155)

Yuxarıdakı ayə ilə yanaşı, Quranda insanların müxtəlif sınaqlardan keçəcəyini xəbərini verən bir çox ayə var. Baş verən bütün bu hadisələrdə göstərilməsi lazım olan doğru rəftar, şükr etmək, səbr etmək və Allahdan xeyir və gözəllikləri ümid etməkdir. Başına gələn bir çətinliyin çox qısa müddətdə keçib gedəcəyini bilən, qarşısına çıxan bu hadisə ilə sınandığını və gözəl əxlaq göstərərsə cənnəti ümid edə biləcəyini bilən möminlər, belə vəziyyətlərdə heç sarsılmazlar. Sıxıntı, kədər hiss etməz, ümidsizliyə qapılmaz, narahat ruh halına bürünməzlər.

Lakin bunu da unutmamaq lazımdır ki, şeytanın vəsvəsələrinə qapılmamaq mövzusunda insan qəti qərarlı olmamalıdır. Çünki şeytan, insana ağla gəlməyəcək yüzlərlə fərqli nöqtədən yaxınlaşaraq vəsvəsə verməyə çalışa bilər. Məsələn, tez-tez səhv edən insana, bu səhvlərindən əsla xilas ola bilməyəcəyini pıçıldayar. Əgər insan Allaha qarşı bir səhvə yol vermişdirsə, nə qədər tövbə etsə də bunun etibarlı olmayacağı, doğrusunu etməyə

niyyət etsə belə Allahın özünü bağışlamayacağı yalanını söyləyər. Bu, şeytanın insanları ümidsizliyə salaraq tövbə etməkdən uzaqlaşdırmaq üçün oynadığı bir çox hiyləgər oyundan biridir. Məhz buna görə də, insanlar səhv etdikləri zaman ümidsizliyə qapılaraq onu düzəldə bilməyəcəkləri narahatlığına qapılarlar. Lakin bir insan, etdiyi səhvə görə peşmançılıq hiss etsə və bundan sonra bir daha təkrarlamamaq şərti ilə dərhal Allaha tövbə etsə, həmin səhv bu insan üçün bir təcrübə olaraq "xeyir" olacaq. Bir ayədə belə buyrulur:

Ey iman gətirənlər! Şeytanın izi ilə getməyin. Kim şeytanın izi ilə getsə, bilsin ki, o şeytan pis və yaramaz işlər görməyi əmr edər. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt təmizə çıxa bilməzdi. Lakin Allah istədiyini təmizə çıxardar. Allah Eşidəndir, Biləndir. (Nur surəsi, 21)

Şeytanın bu mövzudakı gizli taktikalarından biri də, hadisələri içindən çıxılmazmış kimi göstərməyə çalışmaqdır. Əgər bir hadisə asan şəkildə görülsə onun həllinin də asan olacağı aydındır. Buna görə də, şeytan hadisələri çətin və dolaşıq göstərmək istəyər. İnsanların qarşısına çıxan çətinlikləri bir daha həll edə bilməyəcəkləri böyük hadisələr olaraq göstərməyə çalışar ki, insanlar ümidlərini itirsinlər və pessimist, qəmgin ruh halına bürünsünlər. Çünki şən, ümid dolu bir insanın vəsvəsələrə qapılması daha çətindir. Kədər və ümidsizlik kimi pessimist ruh halında isə vəsvəsə olduqca asan zəmin tapar.

Vəsvəsədən xilas olmaq üçün, bu ruh halını xoşlamamaq və bunu yaşamağı istəməmək çox əhəmiyyətlidir. Bəiz insanlar belə yaşamaqdan çox sıxıldıqlarını, ancaq heç cür bundan xilas ola bilmədiklərini söyləyərlər. Buna görə də, ümidsiz və sıxıntılı vəziyyətdə həyatlarına davam edərlər. Buna bir də gündəlik həyatın gedişatında dinlədikləri mahnılardakı, izlədikləri filmlərdəki qəmgin və ümidsiz sözlər əlavə olunduqda xeyli sıxıntıya qapılarlar. Özlərinə həqiqətlər izah edilsə belə, "nə edim əlimdə deyil, kədərlənirəm" kimi, məntiqi və şərhi olmayan bir vəsvəsə ilə, belə həyat yaşamaları lazım olduğuna inanarlar.

Açıqca söyləməsələr də, əslində belə bir həyatdan xoşlanan insanlar olduqlarını ibrətlə görürük. Hər nə qədər sıxıntı yaşasalar də, "melanxolik" adlandırılan bu cür insanlar şüur altında kədərlənməkdən qəribə həzz alarlar və bir cür bu ruh halından asılı olarlar. Şərtlər düzəlsə belə, bu şeytani ruh halı özlərində alışqanlıq yaratdığına görə buraxmaq istəməzlər. Şeytan cəhənnəm əhlinin xüsusiyyəti olan bu qəflət içindəki ruh halını insanlara bəyəndirmək üçün çalışar. Onların hələ dünyada olarkən cəhənnəmin mənəvi əzabını yaşamalarını təmin etmək və onları doğru yoldan, cənnəti və Allahın rəhmətini ümid etməkdən uzaqlaşdırmaq istəyər. Bu da şeytanın mühüm taktikalarından biridir.

Bu ruh halından xilas olmağın həlli, təkcə Allahın qüdrətini bilən, şəfqətindən və mərhəmətindən xəbərdar olan, yaranma məqsədini bilən, insanları tələyə salmağa çalışan şeytanın oyununa gəlməyən bir imana sahib olmaqla mümkün olar. Məhz buna görə də, Allaha təslim olmuş, taleyini yaşadığını görən bir insan, əsla vəsvəsələrə qapılaraq ümidsizliyə düçar olmaz.

## Vəsvəsəli insanlar qorxu və narahatlıq içində yaşayarlar

Allah Quranda təkcə bir qorxunun insanı doğru yola aparacağını bildirmişdir. Bu da Allah qorxusudur. Sonsuz ağıl sahibi olan Allah, ondan qorxanlar üçün doğrunu yanlışdan ayırd edə biləcək anlayış verəcəyini bildirmişdir. Bu, insanların sahib olması lazım xüsusiyyətlərdən biridir. İman sahibi, qəlb gözü olan bir insan doğrunun və yanlışın nə olduğunu bilər. Buna görə də, özünü müxtəlif qorxularla aldatmağa çalışan şeytanın oyunlarına aldanmaz.

Şeytan insanların zəif nöqtələrini yaxşı bildiyi üçün, onları bu zəif nöqtələrindən tutmağa çalışar. Hər insana eyni taktika və üsulla yaxınlaşmaz. Bəzi insanları gələcək qorxusu ilə, bəzi insanları ölüm qorxusu ilə, bəzi insanları da xəsislik və aclıq qorxusu ilə qorxutmağa çalışar. Məsələn, bir insan mənfəət gözlədiyi bir insandan çox çəkinər. Öz mənfəətinə mane olmasından, məsələn, pulunu, malını itirməsinə səbəb olmasından və ya bu insan ucbatından etibarının zədələnməsindən qorxar. O insana müstəqil mənlik verdiyi üçün, onun şəxsi qərarlar aldığına və istəmədiyi bu cür hadisələrin onun gücü ilə meydana gəldiyinə inanar. Halbuki unudulmamalıdır ki, o insanın da Yaradacısı Allahdır. İnsanı yedirdən, içirdən, xəstələndiyi zaman ona şəfa verən Allahdır. Özü bunu bilsə də, bilməsə də, Allaha boyun əymiş şəkildə yaradılmışdır və bu şəkildə həyatını davam etdirir. Bu insan da söylədiyi hər sözü, taleyində Allahın müəyyən etdiyi şəkildə söyləyər. Allah bir ayəsində, özündən mənfəət ümid edən insanların da əslində Allaha qul olduqlarını bildirmişdir. Hər insan axirətdə Allaha hesab verəcək və etdiklərindən sorğu-sual olunacaq. Buna görə də, insanların əsas Allahdan qorxmaları lazımdır.

Allahın sonsuz gücünü və hər şeyin üzərindəki mütləq idarəsini qavraya bilməyən insanlar, bir çox fərqli varlığa mənlik verib, onları müstəqil güc sahibi kimi gördükləri üçün hər tərəfdən təhlükə içində olduqlarını zənn edərlər. Pisliyin kimdən və haradan gələcəyini bilməz və dolayısilə davamlı qorxu və narahatlıqla yaşayarlar. Din əxlaqından uzaq yaşayan insanlar gələcəkdən güclü şəkildə qorxarlar. Həmişə gələcəkdə necə bir həyat yaşayacağını düşünmək, müxtəlif ehtimallardan ötrü narahatlıq keçirmək sıx yaaşdıqları ruh halıdır. "Görəsən başıma bir şey gələrmi? Ya xəstələnsəm? Ya gənc yaşda ölsəm? Görəsən rahat bir həyat yaşaya biləcəyəmmi?" kimi tamamilə yersiz narahatlıqlar, tez-tez rast gəldiyimiz və

yüzlərlə fərqli nümunələr gətirə biləcəyimiz, insanı boş yerə məşğul edən mövzulardan yalnız bir neçəsidir. Hələ baş verməmiş bu hadisələri müxtəlif ehtimalları düşünərək quraşdırmaq, insana yaşadığı anda da böyük sıxıntı və ümidsizlik verər.

Şeytanın insanlara verdiyi şübhə və vəsvəsələrin təbii nəticəsi olaraq insanda həddindən artıq narahat ruh halı meydana gələr. Sakit, təvəkküllü ruh halı ilə qiymətləndirildiyi zaman asanlıqla həll ediləcək sadə problem, vəsvəsəli vəziyyətdə düşünən insanlar üçün içində çıxılmaz hal alar. Bu yanlış aspekt insanı qorxu və narahatlıqlara sürükləyən bir bəlaya çevrilər.

Möminlərin gücünün və qətiyyən pozulmayan əhvalının qaynağı isə, bu həqiqətləri çox yaxşı bilmələri və Allahın yaratdığı taleyə səmimi şəkildə iman gətirmələridir.

## Vəsvəsədən xilas olmaq

İnsanların bir hissəsi də vəsvəsənin boş xülyalardan ibarət olduğunu bilər, lakin bundan xilas olmaq məsələsində iradə göstərməzlər. Halbuki bu hərəkət şeytanın insanı inkar etməyə dəvət etməsinə, fəaliyyətlərinə davam etməsinə icazə vermək mənasını verər. Pisliyə istiqamətləndirən bir səsə qarşı laqeyd qalmaq, “bunun mənə bir zərəri olmaz” şəklində düşünmək şeytanın tələsinə düşmək deməkdir. Bunu görən bir insanın bundan qəti şəkildə xilas olmağa çalışması lazımdır. Çünki şeytan insana vəsəvəsədən xilas olmağın çətin məsələ olduğunu təlqin etməyə çalışar. Hamısından əhəmiyyətlisi də, şeytan vəsvəsəni verənin özü olduğunu gizlədər və bunun insanın öz zehninin yaratdığı düşüncələr, xülyalar olduğuna yanılmasına sürükləyər.

Şeytan bir çox xülyanı insanın zehninə təlqin edərək, onun üçün içindən çıxılması qeyri-mümkün kimi görünən bir mənzərə meydana gətirər. İnsan da bu süni problemləri həll etməsinin mümkün olmadığını görüb ümidsizliyə və pessimizmə qapılar. Halbuki hadisələrə Quran gözüylə baxsa, hər şeyi hər an yaradanın Allah olduğunu və istədiyi təqdirdə hər şeyi yaratmağa gücünün çatdığını bilər, hər mövzuda Ona yönələr və ondan kömək istəyər. Allahın, səmimi qullarını içində olduqları sıxıntıdan qurtaracağını və onlara Ona yönəlmələrindən və güvənmələrindən ötrü daxaili rahatlıq və xoşbəxtlik nəsib edəcəyini bilər və ümid edər. Rəbbimizdən qafil yaşayan insanlar isə hər şeyi özlərinin həll etmələri lazım olduğunu düşünər və güclərinin tükəndiyi yerdə yıxılıb qalarlar.

Halbuki insanın sürətlə gəlib keçən dünyada yaşadığı hər an çox qiymətlidir və əsla boş qorxular, faydasız xülyalarla bu "təyin olunmuş" müddət keçirilməməlidir. İnsan həmişə müsbət düşünməli, yaranma məqsədinə uyğun bir həyat yaşamalıdır. Məhz belə bir səy göstərən insan, Allah istədiyi təqdirdə dünyada və axirətdə gözəllik tapar. Allaha imanın,

taleyə təslimiyyətin dincliyini dərk edən bu insanın şeytanın hiyləsinə düşməsi qeyri-mümkündür. Yəni vəsvəsə bəlasından xilas olmağın yolu, Allaha sığınmaq və Rəbbimizin istədiyi kimi yaşamaq və davranmaqdır:

(Allahdan) çəkinənlərə şeytandan bir vəsvəsə toxunduğu zaman, yaxşı şəkildə düşünərlər (Allahı zikr edib xatırlayarlar), sonra da dərhal görüb anladıqlarını görərsən. (Əraf surəsi, 201)

Şeytanın pıçıldadığı boş xülyalardan xilas olmağın yolu, digər bir ayədə də belə ifadə edilib:

Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, dərhal Allaha sığın. Çünki O, Eşidəndir, Biləndir. (Əraf surəsi, 200)

Göründüyü kimi möminlər üçün şeytanın vəsvəsələri heç bir problem yaratmaz. Sahib olduqları iman və davamlı Allahı xatırlamaları, şeytana və onun vəsvəsələrinə qapılmamalarını təmin edər. Sığınacaq heç bir yerləri olmayan inkarçıların isə vəsvəsə və şeytanın oyunları ilə mübarizə apara biləcək gücləri də yoxdur. Şeytanın əmri altında olan insanlar olmaqdan heç vaxt xilas ola bilməzlər. Necə ki, şeytanın iman gətirənlər üzərində heç bir gücü olmadığı, təkcə inkar edənlərə gücünün çatdığı ayələrdə belə bildirilib:

(Şeytan) dedi: “Ey Rəbbim! Sən məni yoldan çıxartdığına görə, mən də yer üzündə onlara (sənə qarşı çıxmağı və dünya ehtiraslarını) bəzəyib cəlbedici göstərəcəyəm və onların hamısını mütləq azdıracağam. Yalnız Sənin seçilmiş, ixlaslı qullarından başqa”. Allah dedi: “Bu, Mənə görə dümdüz olan yoldur. Şübhəsiz ki, qullarım üzərində sənin heç bir gücün yoxdur. Yalnız sənə uyan azğınlardan başqa”. (Hicr surəsi, 39-42)

# Peyğəmbərlərdəki ümidvar əxlaqdan gözəl nümunələr

Peyğəmbərlər, insanlar üçün hər mövzuda olduğu kimi, hər cür çətinlik qarşısındakı ümidvar və təvəkküllü halları ilə də ən gözəl nümunəni təşkil edirlər. Peyğəmbərlər yalnız Allahı dost tutan, Allahın hökmlərinə qəlbən bağlı olan, bütün həyatlarını Allah üçün yaşayan insanlardır. Həmçinin həyatlarının hər anında Allaha güvənib təvəkkül edən, hər zaman Allahın köməyinin yanlarında olduğunu bilən insanlardır.

O zaman onlara bənzəməyə cəhd edən möminlərin də, gözəl əxlaqın hər təfərrüatında olduğu kimi, ümid dolu olma mövzusunda da onları nümunə götürmələri lazımdır. Peyğəmbərləri nümunə götürən müsəlmanın bütün davranışları, reaksiyaları, qərarları sağlam olacağı üçün, ətrafındakılar da onun bu halından təsirlənəcəklər və onun kimi gözəl rəftar göstərməyə çalışacaqlar.

Tarix boyu bir çox peyğəmbər yaşadıqları qövmlərin qabaqcıl inkarçıları tərəfindən təzyiq altına alınmağa, Allahın tövsiyə etdiyi gözəl əxlaqı insanlara çatdırmaqdan məhrum edilməyə çalışılmışdırlar. İnkarçılar bu məqsəd əsasında peyğəmbərlərə müxtəlif tələlər qurmuş, onlara böhtan atmış və əziyyətlər vermişdirlər.

Peyğəmbərlər isə, inkar edənlərin bu ağır təzyiqini səbir və təvəkküllə qarşılamış və Allahın həmişə onlarla birlikdə olduğunun şüuru ilə, heç vaxt ümidsizliyə qapılmamış, mübarizələrinə daha da artıran şövq və qətiyyətlə davam etmişdirlər. Onların bu əzmləri sayəsində gözəl əxlaq insanlar arasında yayılmış, inkar edənlərin səyi hər dövrdə boşa çıxmışdır.

İrəliləyən sətirlərdə Quranda qeyd olunmuş peyğəmbərlərin həyatlarından bir neçə nümunə gətiriləcək.

## Hz. Məhəmməd (s.ə.v)

Mübarək Peyğəmbərimiz (s.ə.v) bütün həyatı, həyatının hər anı möminlər üçün gözəl nümunədir. Peyğəmbərimiz (s.ə.v)-in həyatına hakim olan dərin təvəkkül və ümidvarlığı göstərən gözəl nümunələrdən biri, Quranda bu cür xəbər verilmişdir:

Siz Ona (Peyğəmbərə) kömək etməsəniz, Allah ona kömək etmişdir. Bir zaman kafirlər iki nəfərdən biri olaraq, Onu (Məkkədən) çıxartmışdılar; ikisi mağarada olduqları zaman o öz dostuna belə deyirdi: "Kədərlənmə, əlbəttə ki, Allah bizimlədir!". Beləcə Allah Ona “rahatlıq və güvən” duyğusunu nazil etdi, Onu sizin görmədiyiniz ordularla dəstəklədi və inkar

edənlərin sözünü (inkar çağırışlarını) də alçaltdı. Halbuki Allahın sözü ucadır. Allah üstün və güclüdür, hökm və hikmət sahibidir. (Tövbə surəsi, 40)

## Hz. Musa (ə.s)

İnkarçılar tərəfindən əngəllənməyə çalışılan peyğəmbərlərdən biri də hz. Musa (ə.s)-dır. Qövmü düşmənlər qarşısında qorxuya qapılıb ümidsizliyə sürüklənərkən, hz. Musa (ə.s) əsla ümidsizliyə qapılmamış, Allahın mütləq onlarla birlikdə olduğunu bir an belə unutmamışdır. Hz. Musa (ə.s)-ın bu səmimiyyət və təslimiyyətinə qarşılıq Allah da onlara böyük möcüzə ilə kömək etmiş, dənizin yarılmasını və beləcə onlar üçün yol açılmasını təmin etmişdir:

İki dəstə bir-birini gördükdə Musanın adamları: “Həqiqətən yaxalandıq!” dedilər. Musa dedi: “Xeyr, şübhəsiz, Rəbbim mənimlədir, O mənə yol göstərəcəkdir”. Bundan sonra Musaya: “Əsanla dənizə vur!” deyə vəhy etdik. (Vurdu və) dəniz dərhal yarıldı ki, hər parçası nəhəng bir dağ kimi oldu. (Şuəra surəsi, 61-63)

## Hz. Əyyub (ə.s)

Ağır bir xəstəliklə mübarizə aparan hz. Əyyub (ə.s) da vəziyyətinə görə az da olsa mütəəssür olmamış və ya ümidsiz qapılmamış, dərin bağlılıqla Allaha yönəlmiş, Allahdan şəfa diləmişdir. Xəstəliyində xeyir görmüş, səbr etmişdir. Quranda bildirilən bu davranışı ilə bütün müsəlmanlara gözəl nümunə təşkil edən hz. Əyyub (ə.s)-ın ümid dolu səbri ilə bağlı ayələr bu şəkildədir:

Bəndəmiz Əyyubu da xatırla. Bir zaman o: "Hər halda şeytan mənə qəhr edən acı və əzab toxundurdu" deyə Rəbbinə səsləndi. "Ayağını hərəkət etdir. Budur yuyunacaq və içəcək soyuq (su" deyə vəhy etdik). Qatımızdan ona bir mərhəmət və təmiz ağıl sahiblərinə bir ibrət olsun deyə, ailəsini və onlarla birlikdə bir bənzərini də bağışladıq. "Və əlinə bir dəstə (çubuq) al, beləcə onunla vur və andını pozma". Həqiqətən, Biz onu səbir edən gördük. O, nə gözəl qul idi. Çünki o, (həmişə Allaha) yönələn biriydi. (Sad surəsi, 41-44)

Beləliklə onun duasına cavab verdik. Üstündən o dərdi götürdük. Ona qatımızdan bir mərhəmət və ibadət edənlərə zikr olsun deyə, ailəsini və onlarla birlikdə bir mislini daha verdik. (Ənbiya surəsi, 84)

## Hz. Yaqub (ə.s)

Hz. Yusif (ə.s)-ın atası hz. Yaqub (ə.s) da Quranda gözəl əxlaqı ilə, Allaha olan sədaqəti ilə təriflənən, nümunə göstərilən bir peyğəmbərdir. Digər oğullarının hz. Yusif (ə.s) üçün qurduqları hiyləgər plandan sonra, Allahdan ümidini heç kəsməmiş və bütün səmimiyyəti ilə Allaha yönəlmiş, onun geri qayıtmasını Allahdan istəmişdir:

O dedi: "Mən dözülməz qəhrimi və kədərimi yalnız Allaha şikayət edirəm və Allahdan nazil olan vəhy sayəsində sizin bilmədiklərinizi bilirəm. Oğullarım! Gedin Yusifdən və qardaşından (həssas araşdırma ilə) bir xəbər gətirin və Allahın mərhəmətindən ümidinizi kəsməyin. Çünki Allahın mərhəmətindən ancaq kafirlər ümidlərini kəsər". (Yusif surəsi, 86-87)

## Hz. İbrahim (ə.s)

Tarix boyu yaşamış bütün peyğəmbərlər, bütün elçilər Allahın rəhmətindən heç vaxt ümid kəsməməyi əmr ediblər. Hz. İbrahim (ə.s)-a bir övladı olacağının müjdəsini verməyə gələn elçilər də eyni davranışı göstərirlər.

Onlar dedilər: "Səni həqiqətlə müjdələdik; elə isə ümid kəsənlərdən olma". (Hicr surəsi, 55)

Hz. İbrahim (ə.s) da Allahın Quranda təriflədiyi bir peyğəmbərdir. Lakin ixlasıyla, səmimiyyətiylə və Allaha olan bağlılığıyla həmişə müsəlmanlara öndər olmuş bir peyğəmbər olan hz. İbrahim (ə.s)-ı qövmü lazımınca təqdir edə bilməmiş, onu yandıraraq öldürməyə cəhd etmişdir. Bu hadisədə də hz. İbrahim Allaha çox böyük sədaqət göstərmiş, ümidini qətiyyən itirmədən Allahın rəhmətinə güvənmiş, gözəl təslimiyyətlə taleyinə təslim olmuşdur. Allah da ona heç bir zərər və əziyyət toxundurmadan odu onun üçün zərərsizləşdirmiş və onu qorumuşdur.

Bundan sonra Qövmünün (İbrahimə) cavabı isə ancaq: “Ya onu öldürün, ya da yandırın!” demələri oldu. Lakin Allah onu oddan qorudu. Doğrudan da, bunda iman gətirmiş qövm üçün ayələr var. (Ənkəbut surəsi, 24)

Biz: “Ey od! İbrahim üçün sərin və zərərsiz ol!” dedik. (Ənbiya surəsi, 69)

# Nəticə

Dünya, insanın yalnız məhdud müddət ərzində qaldığı müvəqqəti iqamətgahdır. Əsil iqamətgah, gerçək yurd isə axirətdir. Dünyada davamlı xeyir ardınca qaçan möminlərin axirətdəki yurdu cənnət, həyatı boyu həqiqətlərdən qaçmış olan inkarçılarınkı isə cəhənnəm olacaq.

Mömin dünya həyatında keçirəcəyi məhdud müddət ərzində müxtəlif imtahanlarla sınanacağını bilər. Lakin onun məqsədi ilk növbədə dünyada bir yer tutmaq deyil, əsas axirətdə gözəl yer tutmaqdır. Çünki dünya həyatı çox qısa və müvəqqətidir. Axirət həyatı isə sonsuz zamanlar boyunca davam edəcək. Axirət, mükəmməliyin və tamlığın yaşanacağı bir yer olacaq. Dünya həyatı isə insanlarda axirətə həsrət olması, dünyaya tamah salıb bağlanmamaları üçün xüsusilə bəzi çatışmazlıqlarla dolu şəkildə yaradılmışdır.

Bunun dərk edərək, dünyanı ancaq mükafat qazana biləcəyi müvəqqəti bir məkan kimi görən mömin, gördüyü hər işdə axirət həsrətini, axirəti qazana bilmə arzusunu daşıyar. Axirətə iman gətirməyənlər yalnız dünyaya bağlı kiçik hədəflər əldə etdikləri halda və bunlara nail ola bilməyin ümidini yaşadıqları halda, möminlər axirəti məqsəd götürüblər.

Axirət möminin həyatı boyu həsrətini çəkdiyi yerdir. Bir an belə axirəti unudub dünya həyatına dalmaz. Axirət inancı tam olduğu üçün bütün davranışları, ibadətləri və ümidləri axirətə istiqamətlidir.

Möminlər bir-birləriylə xeyirlərdə yarışarkən, mümkün olan ən gözəl əxlaqa sahib olmağa, Allaha çox yaxın qul olmağa çalışarlarkən bu davranışlarının arxasındakı səbəb, Allaha duyduqları sevgi və iman, Allahın rəhmətinə və cənnətinə qovuşma ümididir. Ümid nə qədər güclü olsa, insanı səyi də bir o qədər güclü olacaq.

Allahın rəhmətini və cənnətini ümid etmək, insanın bütün həyatına, həyata baxışına, ibadətlərindəki səmimiyyət və qətiyyətə böyük dərəcə təsir göstərər. Allahın rəhmətini ümid edən bir insan, Allahın qadağan etdiyi bir şeyi edə bilməz, Allahın əmr etdiyi bir şeyi görməzlikdən gələ bilməz, pis söz söyləyə bilməz, vicdanın səsini eşitməzlikdən gəlməz, insanlara xeyiri, haqqı tövsiyə edər, onların pis əməl tutmasına mane olar və Allahın ona əmr etdiyi daha bir çox ibadəti şövqlə yerinə yetirər.

Bu şövqlü xarakterdə ümidsizliyə yer yoxdur. Məhz Allahın özlərindən razı olduğu insanlar bunlardır. Allah bunları cənnətlə müjdələyir:

Bu, sizə vəd olunandır; (qəlbən Allaha) yönələn, (İslamın hökmlərini) qoruyan, görmədiyi halda Rəhmandan "içi titrəyərək qorxan" və "könüldən Allaha yönəlmiş" bir qəlblə

gələn kimsə üçündür. "Ona salamla daxil olun. Bu, əbədiyyət günüdür". Orada onlar üçün istədikləri hər şey vardır; qatımızda daha artığı da var. (Qaf surəsi, 32-35)

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez

bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin

mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri

Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.

- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.

- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.

-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında

sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq

vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah’ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. *(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah’ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan

bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)

... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər

heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük

yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

> …Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!
>
> Həqiqətən, Sən bilənsən, müdriksən!
>
> (Bəqərə surəsi, 32)